QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 230 (5461) 15 **dekabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir

*Prezident İlham Əliyev Böyük Britaniyanın ticarət və ixracın təşviqi üzrə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

Səh 2



## Bakının "Ekspo 2025" Ümumdünya Sərgisinə ev sahibliyinə namizəd şəhər olması ilə bağlı təqdimat keçirilib

Bax 8

*Dekabrın 14-də Heydər Əliyev Mərkəzində Bakının "Ekspo 2025" Ümumdünya Sərgisinə (World Expo 2025) ev sahibliyinə namizədliyini irəli sürməsi ilə bağlı Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələri üçün təqdimat keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə diplomatik korpusun nümayəndələri ilə yanaşı, dövlət və hökumət rəsmiləri də iştirak ediblər. Təqdimat mərasimində Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Beynəlxalq Sərgilər Bürosunda Azərbaycan nümayəndə heyətinin rəhbəri Elçin Əmirbəyov və "Ekspo 2025 Bakı" Əməliyyat Katibliyinin icraçı direktoru Pol Foster çıxış ediblər...*


**Azərbaycan Prezidentinin İƏT-in zirvə görüşündəki çıxışı Türkiyə mediasında geniş işıqlandırılıb**



2

**"Azərbaycan Avropanın enerji təhlükəsizliyinə töhfə verir"**



3

**Naxçıvanda akademik Həsən Əliyevin 110 illik yubileyi qeyd olunub**



4

**Dövlət Sərhəd Xidmətinin 2017-ci ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunan müşavirə keçirilib**



5

**Vitse-spiker: "Biz beynəlxalq qurumlardan məhz belə addımlar gözləyirik"**



3

**"The Jerusalem Post": Ermənistan terrorçuların populyarlaşdırılmasını dəstəkləməklə faşizmi dövlət siyasətinə çevirib**



6

11

**Gələn il təhvil veriləcək xam pambığın alış qiymətləri artırılacaq**



11

**Vladimir Putin növbəti müddətə namizədliyini özü irəli sürəcək**



16

**DTF-nin yeni reytinq cədvəli taekvondoçularımız üçün uğurlu olub**



# Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir

*Prezident İlham Əliyev Böyük Britaniyanın ticarət və ixracın təşviqi üzrə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Böyük Britaniyanın ticarət və ixracın təşviqi üzrə naziri, hökumətlərarası komissiyanın həmsədri Baronessa Rona Feyrhedin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əməkdaşlığımızın bundan sonra da genişlənməsi üçün yaxşı potensialın mövcud olduğu qeyd edildi.

Ölkələrimiz arasında iqtisadi əlaqələrin yaxşı tarixə malik olduğunu və Böyük Britaniyanın Azərbaycanın ən böyük xarici investoru olduğunu vurğulayan Prezident İlham Əliyev BP şirkətinin Azərbaycanın qlobal enerji layihələrində əsas tərəfdaşı olmasının önəmini qeyd etdi. Eyni zamanda, Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi istiqamətində böyük işlər görüldüyünü deyən dövlətimizin başçısı gələcəkdə qeyri-energetika sahəsində də Böyük Britaniya şirkətlərinin həm investor, həm də podratçı kimi iştirakının genişlənməsində ölkəmizin maraqlı olduğunu bildirdi. Dövlətimizin başçısı Baronessa Rona Feyrhedin ölkəmizə səfərinin iqtisadi əməkdaşlığımızın daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.



Böyük Britaniyanın ticarət və ixracın təşviqi üzrə naziri, iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın həmsədri Baronessa Rona Feyrhed Azərbaycanın müstəqillik illəri ərzində əldə etdiyi nailiyyətlərin çox böyük təəssürat yaratdığını dedi. Energetika sahəsində əməkdaşlığa toxunan Baronessa Rona Feyrhed BP-Azərbaycan əlaqələrini çox mühüm tərəfdaşlıq əlaqələri kimi dəyərləndirərək hökumətinin bu sahədə əməkdaşlığın bundan sonra da davam etdirilməsi işinə sadiq qalacağını vurğuladı. Britaniya hökumətinin Azərbaycanla ikitərəfli münasibətlərə çox böyük önəm verdiyini deyən qonaq Azərbaycanın ölkəsinin mühüm strateji tərəfdaşı olduğunu bir daha qeyd etdi.

Görüşdə energetika sahəsində əməkdaşlığın perspektivləri ətrafında məsələlərə toxunularaq "Şahdəniz-2" layihəsinin uğurlu icrasının və "Azəri-Çıraq-Günəşli" müqaviləsinin uzadılmasının əhəmiyyəti vurğulandı.

Söhbət zamanı, həmçinin infrastruktur sahəsində Britaniya şirkətlərinin iştirakı, ticarət, qarşılıqlı sərmayə qoyuluşu, alternativ enerji, kənd təsərrüfatı, turizm, təhsil sahələrində əlaqələrin genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Azərbaycan Prezidentinin İƏT-in zirvə görüşündəki çıxışı Türkiyə mediasında geniş işıqlandırılıb

***Azərbaycan Prezidenti İlham Əliyevin İstanbulda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) hazırkı sədri Türkiyə Respublikasının təşəbbüsü ilə dekabrın 13-də Qüds məsələsinə dair keçirilmiş fövqəladə Zirvə toplantısında iştirakı Türkiyə KİV-lərinin diqqət mərkəzində olub.***







AZƏRTAC xəbər verir ki, qardaş ölkə mediası Prezident İlham Əliyevin İstanbula birgünlük səfəri, yüksək qonaqpərvərliklə qarşılanması, İƏT-in zirvə görüşündəki dərin məzmunlu çıxışı barədə çeşidli məlumatlar yayıb. O cümlədən Türkiyənin aparıcı televiziya kanalları Azərbaycan dövlət başçısının səfəri, Qüds məsələsindəki ədalətli mövqeyi barədə tamaşaçıları məlumatlandırıb.

Anadolu agentliyi Prezident İlham Əliyevin çıxışının ayrı-ayrı məqamlarına toxunub. Agentlik Azərbaycanın hər zaman Fələstin xalqına dəstək göstərdiyini vurğulayan, sammit iştirakçılarını Ermənistanın riyakar xislətindən xəbərdar edən Prezident İlham Əliyevin çıxışından bu fikirləri diqqətə çatdırıb: "Ermənistan məscidlər və İslam abidələri daxil olmaqla, bütün mədəni abidələri məhv etmişdir. Ermənistan müxtəlif müsəlman ölkələri ilə dostluq münasibətləri qurmaq istəyir. Bu, ən böyük riyakarlıqdır. Dünya müsəlmanları bilməlidirlər ki, müqəddəs məscidlərimizi dağıdan Ermənistan müsəlman ölkələrinin dostu ola bilməz".

TRT Haber kanalının rəsmi saytı "Azərbaycan Prezidenti Əliyev: ABŞ Qüds qərarını yenidən gözdən keçirməlidir" başlığı ilə yaydığı xəbərdə dövlətimizin başçısının çıxışından bir sıra sitatlar verib. Xəbərin "Hər zaman Fələstin xalqının yanındayıq" yarımbaşlıq hissəsindən sonra ABŞ-ın Qüdsü İsrailin paytaxtı kimi tanımasının yaratdığı təhlükələr barədə Prezident İlham Əliyevin fikirləri təqdim olunub. Ümumiyyətlə, Azərbaycan Prezidentinin zirvə görüşündəki çıxışı ilə bağlı Anadolu agentliyinin xəbərləri bir çox KİV-lərdə yer alıb. "Hürriyyət", "Milliyyət", "Yeni Şəfəq", "Yeni Akit" və digər çoxtirajlı qəzetlər Prezident İlham Əliyevin İƏT sammitində iştirakı ilə bağlı ilk xəbər yayan və səfərin əhəmiyyətinə diqqət çəkən KİV-lər sırasındadır. Türkiyə mediasında yayılan bu xəbərlər fotolarla müşayiət olunur.

***Sabir Şahtaxtı***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***İstanbul***

## Rəsmi xronika

Prezident İlham Əliyev "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycanın müdafiə sənayesi işçilərinin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "İxrac neft və qaz boru kəmərlərinin təhlükəsizliyinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 15 aprel tarixli 685 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

# "Azərbaycan Avropanın enerji təhlükəsizliyinə töhfə verir"

*Birinci vitse-prezident Mehriban Əliyeva Böyük Britaniyanın ticarət və ixracın təşviqi üzrə nazirinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb*





***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva dekabrın 14-də Böyük Britaniyanın ticarət və ixracın təşviqi üzrə naziri, hökumətlərarası komissiyanın həmsədri Baronessa Rona Feyrhedin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.***

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Böyük Britaniyanın ticarət və ixracın təşviqi üzrə naziri, hökumətlərarası komissiyanın həmsədri Baronessa Rona Feyrhedin Azərbaycana səfərinin ikitərəfli münasibətlərin inkişafına xidmət etdiyini bildirdi. Dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın Böyük Britaniya ilə bir sıra sahələrdə əməkdaşlıq qurduğunu deyən Azərbaycanın Birinci vitse-prezidenti neft-qaz sahəsində əlaqələri xüsusi vurğuladı və bu əlaqələrdə Böyük Britaniyanın BP şirkəti ilə əməkdaşlığı qeyd etdi. BP şirkətinin 20 ildən çoxdur ki, Azərbaycanda fəaliyyət göstərdiyini deyən Mehriban Əliyeva ölkəmizdə bu əməkdaşlığın çox yüksək qiymətləndirildiyini diqqətə çatdırdı. Bildirdi ki, bu il "Azəri-Çıraq-Günəşli" layihəsinin yeni mərhələsinə start verilib, yeni müqavilə imzalanıb. Bu isə mövcud əməkdaşlığın həm Böyük Britaniyanın, həm də Azərbaycanın maraqlarına cavab verdiyini nümayiş etdirir. "Şahdəniz-2" layihəsində BP-nin əsas investor olduğunu, gələn il TANAP layihəsinin başa çatacağını deyən Azərbaycanın Birinci vitse-prezidenti qeyd etdi ki, bu layihələrlə Azərbaycan Avropanın enerji təhlükəsizliyinə töhfə verir.

Gələcəkdə iqtisadiyyatın digər sahələrində, o cümlədən qeyri-neft sektorunda da geniş və uğurlu əməkdaşlığın qurulmasının vacib olduğunu deyən Mehriban Əliyeva diqqətə çatdırdı ki, ticarət dövriyyəsinin artması, turizm, kənd təsərrüfatı, yüksək texnologiyalar, nəqliyyat sahələrində əməkdaşlığın genişləndirilməsinin böyük perspektivləri var. Birinci vitse-prezident bu səfərin əməkdaşlıq baxımından yeni imkanlar yaradacağına əminliyini ifadə etdi.

Xalqlarımızın bir-birini daha yaxından tanıması üçün humanitar sahədə əməkdaşlığı xüsusi vurğulayan Mehriban Əliyeva Azərbaycan ilə Böyük Britaniya arasında son illər təhsil sahəsində də əlaqələrin genişləndirildiyini qeyd etdi, ölkəmizdə 16 məktəbdə təhsilin ingilis dilində aparıldığını, yüzlərlə azərbaycanlının Böyük Britaniyada təhsil aldığını bildirdi.

Ölkələrimiz arasında mədəniyyət sahəsində əməkdaşlıq üçün geniş imkanların olduğunu deyən Mehriban Əliyeva Azərbaycanın Təhsil Nazirliyi ilə Oksford Universiteti arasında yüksək səviyyəli əlaqələrin qurulduğunu vurğuladı. "Mən bizim ikitərəfli münasibətlərimizi yüksək qiymətləndirirəm", - deyən Mehriban Əliyeva gələcəkdə qarşılıqlı maraqlar əsasında daha geniş əməkdaşlığın qurulacağına əminliyini bildirdi.

Böyük Britaniyanın ticarət və ixracın təşviqi üzrə naziri, hökumətlərarası komissiyanın həmsədri Baronessa Rona Feyrhed ölkəmizdə ona göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirdi. Qonaq Azərbaycanda keçirdiyi görüşlərdən danışdı, aparılan müzakirələrin ikitərəfli münasibətlərimizin genişləndirilməsi və daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi.

## Vitse-spiker: "Biz beynəlxalq qurumlardan məhz belə addımlar gözləyirik"



"Təəssüf ki, ərazi bütövlüyü ilə bağlı mövqeyin vacibliyi indi dərk olunmaqdadır. Əlbəttə, getdikcə bunu da vacib edən şərt, dünyanın müxtəlif ölkələrində və regionlarında ərazi bütövlüyünə qarşı yönəlmiş separatçı cəhdlərin artması səbəb olub". SİA-nın məlumatına görə, bunu Milli Məclisin vitse-spikeri Bahar Muradova Avropa Parlamentinin "Avropa İttifaqının xarici siyasət və təhlükəsizliklə bağlı qətnaməsi"ni şərh edərkən deyib.

B.Muradova bildirib ki, Avropa İttifaqı, Avropanın digər qurumları bu məsələ ilə bağlı beynəlxalq hüquq prinsiplərinə söykənən açıqlamalar verməklə yanaşı, bu gün artıq rəsmi bəyanatlar verməyi də lazım bilirlər. Vitse-spiker bildirib ki, hər halda dünyada baş verən hadisələrin fonunda belə bir mövqe gözlənilən idi: "Azərbaycan uzun illər bu məsələnin dünya gündəminin bir nömrəli məsələsi olması üçün lazım olan hər şeyi etmişdi, amma çox təəssüf ki, bu təhlükə Avropanın özünə yaxınlaşdıqda bu məsələyə münasibət bildirməli olur. Amma yenə də hesab edirəm ki, münaqişə ocaqlarının söndürülməsi, buna rəvac verən hərəkətlərin qarşısınının alınması istiqamətində bu cür bəyanatlar çox vacibdir, amma bu, yalnız bəyanatları elan etməkdən ibarət olmalı deyil. Elə təkcə Qarabağ məsələsi ilə əlaqədar nəinki bəyanatlar, beynəlxalq hüququn prinsiplərini özündə əks etdirən həm BMT-nin, həm də digər təşkilatların müvafiq qərar və qətnamələri var. Lakin bu qərar və qətnamələrin yerinə yetirilməsi istiqamətində problemlər var. Ona görə də bu bəyanatın səslənməsi çox yaxşıdır, amma bundan irəli gələn və bu bəyanatı əməllərlə möhkəmləndirən hərəkətlər də vacibdir. Biz Avropa İttifaqından və digər beynəlxalq qurumlardan məhz belə addımlar gözləyirik".

Qeyd edək ki, Avropa Parlamenti "Avropa İttifaqının xarici siyasət və təhlükəsizliklə bağlı qətnamə" qəbul edib. Bu, Aİ-nin Şərq Tərəfdaşlığı ölkələrinin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü dəstəkləməyə dair öhdəliklərinə sadiq olduğunu ilk dəfə təsdiqləyir. Bu sənəd Azərbaycan, Gürcüstan, Moldova və Ukraynanın ərazi bütövlüyü məsələsində prinsipial əhəmiyyətə malikdir.

## "Bu il yanğın nəzarəti məqsədilə 38 mindən çox yanğın-texniki müayinə aparılıb"




Cari ildə yanğın nəzarəti məqsədilə sosial, sənaye, nəqliyyat, kənd təsərrüfatı obyektlərində və xidmət sahələrində 38 mindən çox yanğın-texniki müayinə aparılıb. AZƏRTAC xəbər verir ki, bunu Fövqəladə Hallar Nazirliyinin (FHN) yaradılmasının 12-ci ildönümü münasibətilə dekabrın 14-da keçirilən genişləndirilmiş kollegiya iclasında fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov deyib. Nazir bildirib ki, aşkarlanmış çatışmazlıqların aradan qaldırılması üçün obyekt sahiblərinə 210 mindən artıq tələbi özündə əks etdirən göstəriş verilib və xəbərdarlıq edilib: "60 mindən artıq fəhlə və qulluqçu yanğın təhlükəsizliyi barədə təlimatlandırılıb".

Qeyd edilib ki, xilasedicilər yol-nəqliyyat qəzası, silahsursat aşkarlanması, texnogen mənşəli bina və qurğuların dağılması və uçması, mənzildə qaz sızması, təhlükəli bioloji hadisələrin qarşısının alınması, mənzildə və liftdə köməksiz vəziyyətdə qalma daxil olmaqla, 1138 müxtəlif axtarış və qəza-xilasetmə əməliyyatlarında iştirak ediblər. Fövqəladə və bədbəxt hadisələrin aradan qaldırılması zamanı 423 uşaq olmaqla, 1442 nəfər zərərçəkmişə ilk yardım və təxirəsalınmaz yardım göstərilib. Dövlət Yanğından Mühafizə Xidmətinin xilasedicilori tərəfindən 43 dəfə nəqliyyat və digər qəzalarla bağlı çıxışlar olub, 79 nəfər deformasiyaya uğramış nəqliyyat vasitələrindən çıxarılaraq xilas edilib.





# Naxçıvanda akademik Həsən Əliyevin 110 illik yubileyi qeyd olunub

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2017-ci il fevralın 7-də "Akademik Həsən Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb. Buna uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə Tədbirlər Planı təsdiq olunub.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Tədbirlər Planına uyğun olaraq dekabrın 14-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında akademik Həsən Əliyevin 110 illik yubileyi qeyd olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yubiley tədbirində çıxış edərək deyib: 2017-ci il dekabr ayının 15-də akademik Həsən Əliyevin anadan olmasının 110 illiyi tamam olur. Akademik Həsən Əliyev təbiətşünas və coğrafiyaçı, torpaqşünas və ekoloq kimi həm Azərbaycanda, həm də dünya miqyasında tanınmışdır. Onun elmi fəaliyyəti torpaqşünaslığın nəzəriyyəsi, ekologiya, təbii ehtiyatların qorunması və səmərəli istifadəsinə həsr edilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Akademik Həsən Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqında" 2017-ci il 7 fevral tarixli Sərəncamında da qeyd olunduğu kimi: "Azərbaycanda coğrafiya və torpaqşünaslıq elmlərinin müxtəlif sahələrinin təşəkkül tapmasında, bir sıra yeni elmi istiqamətlərin bünövrəsinin qoyulmasında, bu sahələrdə mühüm kadr potensialının formalaşmasında, o cümlədən ölkəmizin təbii sərvətlərinin öyrənilməsində və qorunmasında, ekoloji tarazlığın və ölkənin təbii sərvətlərindən səmərəli istifadə üzrə kompleks proqram və silsilə layihələri uğurla həyata keçirmişdir".

Ali Məclisin Sədri deyib: Akademik Həsən Əliyev ölkəmizdə torpaqşünaslıq və tətbiqi ekologiya elmlərinin əsasını qoymuş, onun rəhbərliyi ilə Azərbaycanın qiymətli sərvəti olan torpaq fondu ilk dəfə pasportlaşdırılmışdır. Azərbaycan Milli Elmlər Akademiyası Torpaqşünaslıq və Aqrokimya İnstitutunun yaranması və inkişafında, çoxsaylı milli elmi kadrların yetişməsində də akademik Həsən Əliyevin misilsiz xidmətləri olmuşdur. Təbii ehtiyatların tədqiqi, təbiətdən istifadənin elmi cəhətdən əsaslandırılması və mühafizəsinin təşkili böyük alimin elmi və ictimai fəaliyyətinin əsaslarını təşkil edirdi. Onun elmi fəaliyyəti nə qədər çoxsahəlidirsə, bir o qədər bütöv və tamdır. Buna görədir ki, coğrafiyaçılar onu coğrafiyaşünas, ümumi əkinçilik və torpaq nəzəriyyəsi ilə məşğul olanlar torpaqşünas, ətraf mühit mütəxəssisləri isə ekoloq adlandırırdılar. Bir sözlə, akademik Həsən Əliyevin apardığı elmi tədqiqatlar nümunə gücündə olmuş, ümumdünya miqyasında mühüm elmi nailiyyətlər kimi təsdiq və qəbul edilmişdir.

Qeyd olunub ki, Vətənə, onun torpağına, suyuna və təbiətinə dərindən bağlı insan kimi torpağın mühafizəsi məsələləri həmişə akademik Həsən Əliyevi düşündürüb. "İnsan üçün torpaqdan kənar təbiət anlayışı yoxdur" - deyən alim torpağın minilliklər boyu formalaşmış münbit qatının eroziyaya uğrayaraq dağıdıldığına, müxtəlif maddələrlə çirkləndirildiyinə, məhsuldar torpaqların üzərində tikinti-inşaat işlərinin aparılmasına təəssüfləndiyini bildirərək bütün cəmiyyəti torpağın qayğısına qalmağa çağırırdı. Bu sahədə apardığı səmərəli elmi fəaliyyətin nəticəsidir ki, onun təşəbbüsü ilə torpaq kadastrı, torpaqların qiymətləndirilməsi kimi elm sahələrinin Azərbaycanda təməli qoyulub və inkişaf etdirilibdir. Akademik Həsən Əliyev ömrünün sonuna qədər Azərbaycanın ekoloji problemləri, meşələrin və meşə torpaqlarının elmi tədqiqi və mühafizəsi sahəsində kompleks tədqiqatlar aparıb, Azərbaycanın müxtəlif ərazilərində ayrı-ayrı ağac cinslərinin yayılması qanunauyğunluqlarını işləyib hazırlayıb. İnsanın sistemsiz təsərrüfat fəaliyyəti nəticəsində dağ və düzən meşələrin sıradan çıxması, ayrı-ayrı qiymətli ağac növlərinin tükənmək təhlükəsi onu narahat edirdi. 1976-cı ildə qələmə aldığı "Həyəcan təbili" kitabında Azərbaycan əhalisini, ziyalıları, gəncləri ətraf mühitin, torpağın, bitki örtüyünün sıradan çıxmasının qarşısını almağa, məhv olmaq təhlükəsi altında qalan bitki və heyvan növlərinin, suyun, atmosferin mühafizəsinə səsləyir və deyirdi ki: "Təbiətə münasibətdə yubanmaq çox yaşamağa yubanmaqdır".

Ali Məclisin Sədri bildirib ki, bu, hələ ötən əsrdə insanları gözləyən qlobal ekoloji və iqlim dəyişikliklərinə yol verməmək, həyat və insan yaşayışı naminə ətraf aləmi qorumaq barədə böyük bəşəri düşüncə sahibinin gələcək nəsillərə ziyalı çağırışı və müraciəti idi. Görkəmli Azərbaycan alimi təbiətə dağıdıcı təsirin bəşəriyyət üçün təhlükəli olacağına diqqəti çəkərək təbiətə və təbii ehtiyatlara baxışın dəyişdirilməsi, geniş mənada maarifçiliyə böyük ehtiyac olduğunu əsaslandırır, "təbiəti duymaq, dinləmək, onun keşiyində durmağı bacarmaq psixologiyasını böyüyən nəslə aşılamaq ən yaxşı təbiət dərsidir" - deyirdi. Akademik Həsən Əliyevin xalqımız qarşısında xidmətlərindən biri də Azərbaycanda dövlət qoruq və yasaqlıqlarının yaradılmasıdır. Onun təşəbbüsünün nəticəsi olaraq yaradılan dövlət qoruq və yasaqlıqları hesabına Azərbaycanın nadir bitki və heyvanlar aləmi qorunub saxlanmışdır.

Ali Məclisin Sədri deyib ki, akademik Həsən Əliyevin təbiətin mühafizəsi, ondan səmərəli istifadə edilməsi sahəsində apardığı tədqiqatların və gördüyü işlərin miqyası böyükdür. 60 il elmi yaradıcılıqla məşğul olan akademik 800-dən çox elmi məqalə və monoqrafiya, 140-a yaxın müxtəlif təyinatlı xəritə, eləcə də xeyli sayda elmi-kütləvi nəşrlər hazırlayıb, özündən sonra zəngin irs qoyub. Akademik Həsən Əliyevin zəhmətinin məhsulu olan bu irs bu gün əhalinin ekoloji maarifləmməsi üçün əhəmiyyətli rola malik olan qiymətli xəzinədir. Qədim Şərq müdrikləri deyirdilər: "Əsl alim odur ki, özündən sonra işi və əməlləri qalsın". Akademik Həsən Əliyev belə alimlərdən və müdrik zəka sahiblərindən idi. Vətənə və xalqa təmənnasız xidmətləri ilə elm tariximizdə əbədi iz buraxmış bu böyük şəxsiyyətin həyatı və yaradıcılığı "əsl alim necə olmalıdır" sualının ən yaxşı nümunəsi, gələcək nəsillər üçün əsl tərbiyə məktəbidir.

Diqqətə çatdırılıb ki, akademik Həsən Əliyev Naxçıvan Muxtar Respublikasının da zəngin təbiətini tədqiq edib, təbiətin qorunması, təbii ehtiyatlardan səmərəli istifadə ilə bağlı dəyərli tövsiyə və təkliflər verib. Bu gün görkəmli alimin Naxçıvan Muxtar Respublikasının ekoloji mühiti, zəngin təbiətinin qorunması ilə bağlı arzuları reallığa çevrilib. Naxçıvanda yaşıllıq zolaqları, meyvə bağları salınır, qədim meyvə sortları bərpa edilərək əkin dövriyyəsinə qatılır. Bir vaxtlar muxtar respublikada yaşıl örtük sahəsi ümumi ərazinin bir faizini keçmirdisə, hazırda bu göstərici 14 faizdən çoxdur.

Azərbaycan elminə dəyərli töhfələr vermiş görkəmli alim, bacarıqlı elm təşkilatçısı və tanınmış ictimai xadim Həsən Əliyevin xidmətləri layiqincə qiymətləndirilib. Xalqımızın ümummilli lideri Heydər Əliyevin tapşırığı və himayəsi ilə 2003-cü il iyunun 16-da akademik Həsən Əliyev adına Ordubad Milli Parkı yaradılıb, 2009-cu ildə Milli Parkın ərazisi Şahbuz, Culfa, Ordubad rayonlarının torpaqları hesabına genişləndirilərək akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı adlandırılıb. Muxtar respublikanın ən böyük müəssisələrindən olan "Araz" Elm-İstehsalat Birliyi akademik Həsən Əliyevin adını daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına əsasən görkəmli alimin 110 illik yubileyi ilə bağlı muxtar respublikada müxtəlif tədbirlər, elmi konfranslar keçirilib, gənclərin və tələbələrin Həsən Əliyev adına Zəngəzur Milli Parkına ekskursiyaları təşkil edilib, Naxçıvan şəhərindəki Həsən Əliyev adına küçə yenidən qurulub.

Ali Məclisin Sədri deyib: Akademik Həsən Əliyevin xidmətləri öz dövründə olduğu kimi, bu gün də aktuallığını qoruyub saxlamaqdadır. Ümummilli liderimiz Heydər Əliyevin də qeyd etdiyi kimi: "Təbiətin ölkəmizə bəxş etdiyi zəngin sərvətlərə xüsusi qayğı ilə yanaşmaq, belə misilsiz xəzinələri bəşəriyyətin gələcəyi naminə qorumaq üzərimizə düşən əsas vəzifələrdəndir...".

Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri Hafiz Yaqubov çıxış edərək deyib ki, Ali Məclis Sədrinin Sərəncamı ilə təsdiq edilmiş "Akademik Həsən Əliyevin 110 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"na uyğun olaraq muxtar respublikada Həsən Əliyevin həyat və yaradıcılığı haqqında tematik materiallar hazırlanıb, akademikin adını daşıyan Zəngəzur Milli Parkı ərazisinə turizm marşrutları təşkil edilib, "Həsən Əliyev-110" mövzusunda elmi konfrans və maarifləndirici tədbirlər keçirilib.

Qeyd olunub ki, alimin arzu etdiyi ekoloji tədbirlər bu gün Naxçıvan Muxtar Respublikası ərazisində uğurla həyata keçirilməkdədir. Muxtar respublikanın ümumi ərazisinin 28 faizə qədərini xüsusi mühafizə olunan təbiət əraziləri - milli park, qoruq və yasaqlıq təşkil edir ki, bu da ətraf mühitin mühafizəsi sahəsində qəbul edilmiş ən yüksək göstəricilərdəndir. Görülən işlər nəticəsində meşə ehtiyatlarımız və yaşıllıqların sahəsi dəfələrlə artıb. Təkcə 2017-ci ildə muxtar respublika ərazisində 550 hektar sahədə yeni yaşıllıqlar salınıb, doğma diyarımızın meyvəçilik şöhrəti özünə qaytarılıb. Akademik Həsən Əliyev Naxçıvanda yerli meyvə sortlarının inkişaf etdirilməsi, qoz, badam və süfrə üzümü yetişdirilməsinin həm iqtisadi əhəmiyyətini və eyni zamanda, bu meyvə bağlarının kənd təsərrüfatı əkinləri üçün yararsız olan torpaqlarda əkilməsini əsaslandırırdı. Muxtar respublika ərazisində bu il 50 hektar münbitliyi az olan torpaqlarda yeni meyvə bağları, 20 hektar sahədə süfrə üzümü, 16 hektar sahədə badam bağı və dağlıq ərazilərdə qoz bağları salınıb. Muxtar respublikamızda meyvəçiliyin inkişafına xüsusi diqqət göstərilməsinin nəticəsidir ki, son illər aparılan yaşıllaşdırma tədbirlərində meyvə tinglərinin xüsusi çəkisi 70 faizdən yuxarı olub. Təbiəti mühafizə və elmi tədqiqat sahəsində yeni ədəbiyyatların, o cümlədən flora və faunaya dair iki cilddən ibarət "Qırmızı kitab"ın və digər ədəbiyyatların çap edilməsi akademik Həsən Əliyevin elmi yaradıcılığının bu gün də davam etdirilməsini göstərir. Hafiz Yaqubov Naxçıvanda akademik Həsən Əliyevin irsinə verilən yüksək qiymətə, ətraf mühitin mühafizəsi və zənginləşdirilməsinə göstərilən diqqət və qayğıya görə muxtar respublika ekoloqları və təbiətsevərləri adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Tədbirin aparıcıları akademik Həsən Əliyevin həyat və fəaliyyəti haqqında məlumat verib, onun "Həyəcan təbili" əsərindən parçalar oxunub.

Sonra akademik Həsən Əliyevlə bağlı Naxçıvan Dövlət Televiziyasının hazırladığı "Torpağa, Vətənə bağlı ömür" adlı sənədli televiziya filminə baxış olub.

# Dövlət Sərhəd Xidmətinin 2017-ci ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunan müşavirə keçirilib





***Dövlət Sərhəd Xidmətinin (DSX) 2017-ci ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunan hesabat müşavirəsi keçirilib.***

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, müşavirədə Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi Fuad Ələsgərov iştirak edib. Fuad Ələsgərov müşavirədə çıxış edərək Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərhəd təhlükəsizliyi məsələlərinə ali diqqət və qayğısından, hesabat dövründə dövlət sərhədinin mühafizəsi sahəsində əldə olunmuş nailiyyətlərdən və həyata keçirilmiş struktur islahatlarından, Dövlət Sərhəd Xidməti qarşısında duran vəzifə və tapşırıqlardan danışıb.

Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev müşavirədə hesabat məruzəsi ilə çıxış edib, silahlı birləşmələrin və digər struktur qurumların xidməti fəaliyyətini qiymətləndirib, 2018-ci ildə DSX qarşısında duran əsas vəzifə və tapşırıqları qeyd edib.

Məruzədə bu ilin Azərbaycan Sərhəd Mühafizəsi üçün döyüş hazırlığının daha yüksək səviyyədə təmin olunması, dövlət sərhədinin toxunulmazlığının təminatı tədbirlərinin ardıcıl şəkildə davam etdirilməsi, dövlət sərhədinin əməliyyat və texniki yolla mühafizəsinin gücləndirilməsi, beynəlxalq sərhəd əməkdaşlığının genişləndirilməsi ilə əlamətdar olduğu bildirilib.

Diqqətə çatdırılıb ki, dövlət sərhədinin mühafizəsinin təşkilində uğuraların əldə edilməsi dahi öndər Heydər Əliyevin sərhəd mühafizəsi sahəsindəki ideya və düşüncələrinin əzmlə gerçəkləşdirilməsi, dövlət sərhədinin mühafizəsi məsələlərinə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ali diqqəti nəticəsində mümkün olub.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yanvarın 13-də və avqustun 24-də DSX Sahil Mühafizəsinin gəmi inşası zavodunda inşası yekunlaşmış üçüncü və dördüncü "Tufan" tipli sərhəd gözətçi gəmilərlə tanış olması, bu tipli daha iki gəminin təməlini qoyması, dəniz sərhədlərinin və neft-qaz infrastrukturunun mühafizəsi üzrə mühüm tapşırıqlar verməsi, iyulun 5-də Dövlət Sərhəd Xidmətinin strukturunun təkmilləşdirilməsi, DSX-nin tərkibində 4 silahlı birləşmənin yaradılması barədə qərar verməsi, DSX əməkdaşlarını 1 orden, 40 medal, 6 fəxri adla təltif etməsi bütün şəxsi heyət tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanıb.

Bildirilib ki, 2017-ci ildə Dövlət Sərhəd Xidməti tərəfindən bir sıra mühüm nailiyyətlər əldə olunub. Belə ki, Azərbaycana qarşı kəşfiyyat-pozuculuq fəaliyyəti məqsədilə xarici xüsusi xidmət orqanları ilə əlaqədə şübhəli bilinən 10 nəfər, məxfi əməkdaşlığa cəlb olunmuş 1 nəfər müəyyənləşdirilib. Bundan başqa, xarici münaqişə zonalarında döyüşmüş 30 nəfərin şəxsiyyəti müəyyən olunub. Onlardan 5 nəfər Azərbaycan vətəndaşı, 2 nəfər əcnəbi saxlanılıb, qanunsuz miqrasiya ilə məşğul olan 5 qrup, qaçaqmalçılıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan 8 mütəşəkkil cinayətkar dəstə zərərsizləşdirilib. Dövlət sərhədini pozduqlarına görə 503 nəfər, sərhədboyu rejim qaydalarını pozduqlarına görə 12 min 241 nəfər, axtarışda olan 4686 nəfər saxlanılıb. 13 milyon 72 min manat dəyərində qaçaqmalın, 156 kiloqram 556,6 qram narkotik vasitənin dövlət sərhədindən qanunsuz keçirilməsinin qarşısı alınıb.

Dövlət sərhədindən keçən şəxslərin sənədlərinin yoxlanılması prosedurları optimallaşdırılıb, Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunları və Formula-1 yarışlarının təşkili zamanı DSX qarşısında qoyulmuş tapşırıqlar uğurla yerinə yetirilib, Azərbaycana gələn əcnəbilərin dövlət sərhədindən keçidi yüksək səviyyədə təşkil olunub.

Həmçinin genişmiqyaslı döyüş atışlı taktiki dəniz sərhəd təlimləri keçirilib, gəmi silahlarının gecə və gündüz şəraitində atışları zamanı bütün təlim tapşırıqları yüksək səviyyədə icra olunub, şəxsi heyət tərəfindən böyük döyüş məharəti nümayiş etdirilib.

Qeyd olunub ki, avqustda Gürcüstanın Borjomi-Xaraqulsk qoruğunda baş verniş meşə yanğınlarının söndürülməsi əməliyyatlarında Dövlət Sərhəd Xidmətinin iki helikopteri iştirak edib, uçuş heyətlərimiz tərəfindən yüksək peşəkarlıq göstərilib. Sərhəd xəttində xüsusi işarəverici texniki komplekslərin, texniki müşahidə məntəqələrinin və videomüşahidə kameralarının quraşdırılması nəticəsində dövlət sərhədinin pozulmasının qarşısının texniki yolla alınması sahəsində önəmli nəticələr əldə olunub. Heydər Əliyev Mərkəzinin və Təhsil Nazirliyinin təşkilatçılığı və 44 ali təhsil müəssisəsinin iştirakı ilə keçirilən "Heydər Əliyev və Azərbaycan tarixi" IV ümumrespublika bilik yarışında Dövlət Sərhəd Xidmətinin Akademiyası birinci yerə yüksəlməklə qələbə qazanıb.

Bildirilib ki, Dövlət Sərhəd Xidmətinin xüsusi məktəbinin yeni korpusunun inşa olunması nəticəsində məktəbdə təhsil alan kursantların sayının üç dəfəyədək artırılması şəraiti yaradılıb. Dövlət sərhədinin mühafizəsi infrastrukturunun təkmilləşdirilməsi tədbirləri uğurla davam etdirilib, 119 binadan ibarət tikinti komplekslərinin əsaslı təmir-tikintisi həyata keçirilib.

Xüsusi vurğulanıb ki, Azərbaycan Respublikası Silahlı Qüvvələri tarixində ilk dəfə olaraq Dövlət Sərhəd Xidməti tərəfindən tətbiq olunmuş sərhəd bölmələrində "Valideyn günləri"nin keçirilməsi təcrübəsi uğurla davam etdirilib, hesabat dövründə bu cür 96 görüş təşkil edilib. Hesabat müşavirəsində Azərbaycan sərhədçilərinin üzərlərinə düşən vəzifələri və Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarını daim şərəf və ləyaqətlə yerinə yetirəcəkləri vurğulanıb. Müşavirənin sonunda xidmətdə fərqlənmiş hərbi qulluqçulara dövlət təltifləri təqdim olunub.



## YAP-ın yaradılmasının 25 illiyi münasibətilə partiyanın Səbail rayon təşkilatının gördüyü işlər müzakirə edilib

***Dekabrın 14-də Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının idarə heyətinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda YAP-ın yaradılmasının 25 illik yubileyi münasibətilə partiyanın Səbail rayon təşkilatının gördüyü işlər və gündəlikdə duran cari məsələlər müzakirə edilib.***



YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev iclasda çıxış edərək ulu öndər Heydər Əliyevin qurucusu olduğu partiyanın müstəqilliyin əvvəllərində Azərbaycanı düşdüyü ağır ictimai-siyasi böhrandan, müstəqilliyin itirilməsi və vətəndaş müharibəsi təhlükəsindən xilas etməsindən, ölkəmizi dinamik inkişaf yoluna çıxarmasından danışıb. Diqqətə çatdırılıb ki, əbədiyaşar lider Heydər Əliyevin uzaqgörən siyasətini uğurla və qətiyyətlə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edən Azərbaycan regionun lider dövlətinə və dünya birliyində böyük nüfuz sahibinə çevrilib.

Sədr qeyd edib ki, partiyanın 25 illik yubileyi münasibətilə YAP Səbail rayon təşkilatının reallaşdırdığı silsilə tədbirlərin və aksiyaların əsas məqsədi ölkəmizin əldə etdiyi bu uğurların ölkə ictimaiyyəti, xüsusən gənclər arasında geniş təbliğ edilməsi olub. Bu istiqamətdə ulu öndər Heydər Əliyevin partiyanın "qızıl fondu" adlandırdığı "91-lər"lə görüş, iki "dəyirmi masa", ağacəkmə aksiyası, Böyük Qayıdış prosesinin başlanmasının rəmzi olan Cocuq Mərcanlı kəndinə, cəbhə bölgəsinə səfər təşkil edilib və digər tədbirlər keçirilib. Yüksək fəallıq şəraitində keçirilən bu tədbirlər partiyanın üzvləri ilə yanaşı, ölkə ictimaiyyəti tərəfindən də böyük maraqla qarşılanıb. Məmnunluqla qeyd edilib ki, partiyanın yubileyi münasibətilə YAP Səbail rayon təşkilatının tədbirlər planında əksini tapan bütün məsələlər həllini tapıb.



Sonra partiyanın yaradılmasında mühüm xidmətlərinə, ölkəmizin ictimai-siyasi həyatında fəal iştiraklarına görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən yüksək fəxri adlar, orden və medallarla təltif olunan partiya üzvlərinin bir qrupuna YAP Səbail rayon təşkilatının fəxri fərmanları təqdim edilib. İclasda 33 saylı şəhər poliklinikasının "Şəhər klinik", Bakı şəhəri 1 saylı poliklinikasının "Pediatorlar", 15 saylı uşaq poliklinikasının "Təbiblər", Respublika Klinik Uroloji Xəstəxanasının "Uroloqlar" ərazi ilk partiya təşkilatlarının hesabatları dinlənilib.

Sonra Azərbaycan Bəstəkarlar İttifaqının "Bəstəkarlar", Azərbaycan Dövlət Teatr Xadimləri İttifaqının "Aktyorlar evi" ərazi ilk partiya təşkilatlarının müraciətlərinə baxılaraq, qeydiyyata alınması barədə qərar qəbul olunub. Sonda cari məsələlər və qarşıda duran vəzifələr müzakirə edilib.

# "The Jerusalem Post": Ermənistan terrorçuların populyarlaşdırılmasını dəstəkləməklə faşizmi dövlət siyasətinə çevirib

***Son vaxtlar dünyanın bəzi ölkələrində faşizmin və terrorizmin populyarlaşdırılması, başqa xalqlara və millətlərə münasibətdə dözümsüzlük müşahidə olunur. BMT Baş Assambleyası bunu nəzərə alaraq yaxın vaxtlarda "Faşizmin qəhrəmanlaşdırılması, irqçilik, irqi ayrı-seçkilik, ksenofobiya və onunla bağlı olan dözümsüzlüyün təşviqinə xidmət edən neonasizm və onun digər növlərinə qarşı mübarizə" adlı qətnamə qəbul edib. Təəssüflə qeyd etmək istəyirəm ki, bu qətnamə bir qədər gecikib, onu bir neçə il bundan əvvəl qəbul etmək lazım idi.***

AZƏRTAC xəbər verir ki, İsraildəki "Cəmiyyət üçün beynəlxalq layihələr" adlı qeyri-hökumət təşkilatının başçısı, beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert Arye Qut bu fikirləri İsraildə çıxan nüfuzlu ingilisdilli "The Jerusalem Post" qəzetinin 13 dekabr tarixli nömrəsində dərc edilmiş "Ermənistan terrorçuları tərifləməklə faşizmi dövlət siyasətinə çevirib" sərlövhəli məqaləsində yazıb (bax: http://www.jpost.com/Blogs-/News-from-Arye-Gut/By-promoting-terrorists-Armenia-made-propaganda-of-fascism-state-policy-517647).

Məqalə müəllifi vurğulayır ki, başqa xalqlarla müqayisədə faşizmdən, terrorizmdən və antisemitizmdən daha çox əziyyət çəkənlərdən biri yəhudi xalqıdır. İsrailli analitik vurğulayır: "İsrailin bu qətnamə barəsində mövqeyi birmənalı və dəyişməzdir. Bu sənəd bütün bəşəriyyətin xeyrinədir, çünki Almaniyada faşizmin təbliğ edilməsinin nəticələri hələ atalarımızın və babalarımızın xatirindədir. Holokost yəhudi xalqının yaddaşında həkk olunmuş dəhşətli və dözülməz sözdür. Bu, yəhudi xalqının vəhşiləşmiş faşist rejimi tərəfindən alçaldılması, təhqir edilməsi, vəhşilik, barbarlıq, kütləvi qırğındır. Biz başqa xalqların öz tarixini necə şərh etmək barədə suveren hüquqlarına, öz tarixi keçmişinə və öz milli qəhrəmanlarının xatirəsinin əbədiləşdirilməsi məsələlərinə müdaxilə etmirik. Lakin Holokost kimi dəhşətli cinayətlərdə əli olmuş insanların milli qəhrəmanlara çevrilməsini görəndə biz susmalıyıq. İndi, gah Ermənistanda, gah Ukraynada və ya başqa bir yerdə nasizm baş qaldıranda israillilər bunu dinməzcə müşahidə edə bilməzlər və etməməlidirlər. Ona görə ki, nasizm, terrorizm və faşizm oddan daha sürətlə yayılmaq xassəsinə malikdir, onun qarşısını almaq və yanğın başlayana qədər onu dayandırmaq lazımdır, sonra gec ola bilər".




Qutun fikrincə, Azərbaycanda da bu qətnaməyə müsbət münasibət bildirilib. Bu, gözlənilən idi, çünki Azərbaycanda multikulturalizm və tolerantlıq dövlət səviyyəsində dəstəklənir. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, Azərbaycan xalqına xas olan tolerantlıq və multikulturalizm onun əsrlər boyu müxtəlif millətlərin və dinlərin nümayəndələri ilə ortaq dil tapmasına imkan verir. Azərbaycan xalqlar və konfessiyalar arasında sabitlik, əməkdaşlıq və qarşılıqlı anlaşma adasıdır. Bu gün Avropa ölkələrinin çoxunda və ərəb ölkələrində millətçilik, ksenofobiya və şovinizm təzahür etdiyi, antisemitizmin tüğyan etdiyi bir vaxtda Azərbaycanda belə faktlar yoxdur və heç vaxt olmayıb. Burada bütün milli azlıqlar kimi yəhudi icması da həmişə cəmiyyətin inteqral hissəsi olub.

Hamıya məlumdur ki, İkinci Dünya müharibəsində qələbə qazanılmasında Azərbaycan nefti çox böyük rol oynayıb. Faşizmin üzərində qələbə qazanılmasına Azərbaycan xalqı da böyük töhfə verib və İkinci Dünya müharibəsində qələbə naminə Azərbaycan böyük qurbanlar verib. Bu müharibədə əksəriyyəti yəhudilər olan çoxsaylı qaçqınlar və məcburi köçkünlər Azərbaycanda sığınacaq tapır. Onların arasında mənim ailəmin üzvləri də olub. Bu insanlar Azərbaycan xalqının humanizmi və tolerantlığı sayəsində xilas olublar".

Arye Qutun fikrincə, heç də bütün ölkələrdə vəziyyət belə olmayıb. Başqa dövlətlərə nəzər salanda orada tamam fərqli mənzərə görünür. Məqalə müəllifi yazır: "Məsələn Cənubi Qafqazın digər dövlətində - Ermənistanda tamamilə bunun əksi olan vəziyyət müşahidə olunur. Doğrudur, Ermənistan gözdən pərdə asmaq üçün o da yuxarıda adı çəkilən qətnaməyə səs verir, lakin bununla bərabər Ermənistanda faşizm ideologiyası, irqi ayrıseçkilik dövlət səviyyəsində təbliğ olunur, faşist Almaniyası ilə sıx əməkdaşlıq etmiş erməni millətçilərinə abidələr ucaldılır, küçələrə, meydanlara, tədris müəssisələrinə, strateji mərkəzlərə və başqa obyektlərə onların adları verilir. Bu ölkədə faşizmin, antisemitizmin və terrorizmin populyarlaşdırılması dövlət siyasətinin tərkib hissəsinə çevrilib. Ermənistanda antiazərbaycan siyasəti ilə yanaşı, antisemitizm də tüğyan edir".

Politoloq Moşe Bekker haqlı olaraq yazır: "1998-ci ildə erməni politoloqu, professor İqor Muradyan "Ermənistanın səsi" qəzetində dərc edilmiş məqaləsində açıq-aşkar nasizm ideologiyasını dəstəkləyirdi. Onun sözlərinə görə, yəhudi-erməni qarşıdurması semitlərlə arilər arasında münaqişədir. O, qondarma erməni soyqırımında yəhudiləri ittiham etməklə kifayətlənməyib sübut etməyə çalışır ki, Dağlıq Qarabağ münaqişəsinin arxasında məhz yəhudi xalqı və İsrail dövləti dayanır. Dörd il sonra Yerevanda Romen Yepiskopyanın "Milli sistem" adlı kitabı çapdan çıxdı. Bu kitab Ermənistan yazıçılarının rəsmi birliyi tərəfindən buraxılmışdı. Müəllif bu "elmi əsər"də ermənilərin başına gələn bütün müsibətlərdə yəhudiləri ittiham edir və eyni zamanda, yəhudi xalqının tarixində ən dəhşətli səhifə olan Holokostu inkar edir, onu "Yəhudilərin arilərə qara yaxmaq məqsədilə uydurması" adlandırır. Həmişə olduğu kimi, bu dəfə də anlayışlar saxtalaşdırılır".

Qut qeyd edir ki, Ermənistan özünün müsibətlərində yəhudiləri ittiham etməklə paralel olaraq faşist Almaniyasının SS generalı Qaregin Njdenin, "Dro" ləqəbi ilə tanınmış Drastamat Kanoyanın, terrorçu Monte Melkonyanın və onlara oxşar başqalarının "milli qəhrəmanlar" kimi populyarlaşdırılması siyasəti yürüdür, onların xatirəsini və adlarını əbədiləşdirir.

Arye Qut İsraildə çıxan nüfuzlu ingilisdilli "The Jerusalem Post" qəzetində yazır: "Vaxtilə Qaregin Njde tərəfindən formalaşdırılmış şovinist erməni millətçi ideologiyası, irqçilik meyli müasir mərhələdə Ermənistan respublikaçılar partiyasının və Serj Sarkisyan başda olmaqla Ermənistan hökumətinin ideologiyasının əsasıdır. 2016-cı ilin may ayında Sarkisyan Yerevanda faşist Njdenin heykəlinin açılışında şəxsən iştirak edib. Ən dəhşətlisi və insanı hiddətləndirən odur ki, "Njdeizm" adlı faşist ideologiyası tədris müəssisələrinin proqramına daxil edilib və Ermənistanın gənc nəsli bu "dəyərlər" ruhunda tərbiyə edilir.

Siz deyin, nasist, faşist və antisemit Qaregin Njdeyə Yerevanda abidə qoyulmasına necə münasibət bildirək. Bu ölkə bəşəriyyətə qarşı cinayət törətməkdə təqsirli bilinmiş faşist canini özünü qəhrəmanı adlandıra bilərmi? Erməni faşist və antisemit general Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi biabırçılıq və Holokost qurbanlarının xatirəsinə təhqirdir. Şəxsən mənim üçün - babasının ailəsinin bütün üzvləri Ukraynada faşistlər tərəfindən məhv edilmiş bir insan üçün bu, dözülməz ağrıdır. Məhz bu səbəbdən bu mənim üçün də şəxsi faciədir".

Məqalə müəllifi vurğulayır ki, belə hadisələri gec işə düşən bomba adlandırmaq olar, çünki bu ideologiya əsasında böyüyən gənclər gələcəkdə faşizm və terror işini davam etdirəcəklər. Arye Qut yazır: "Ermənistan hökumətinin maliyyə dəstəyi ilə "Qaregin Njde və onun təlimi" adlı kitab nəşr edilib, onun haqqında bir neçə milyon ABŞ dollarına başa gəlmiş film çəkilib. ABŞ-ın və Rusiyanın maliyyə yardımı Ermənistanda nasizmin, faşizmin və terrorizmin populyarlaşdırılmasına xərclənir. Ermənistanın bu dövlət siyasəti İkinci Dünya müharibəsində faşizmə qarşı mübarizədə həlak olmuş milyonlarla insana, onların yaxınlarına və veteranlara, xüsusən faşizm üzərində qələbədə müstəsna xidmətləri olmuş keçmiş SSRİ vətəndaşlarına hədsiz hörmətsizlik nümunəsidir. Burada belə bir sual yaranır: Doğrudanmı ermənilərin Njde və Dro kimi faşistlərdən başqa qəhrəmanları olmayıb? Ermənistanda faşizm ilə yanaşı, dövlət səviyyəsində terrorizmin qəhrəmanlaşdırılması siyasəti yürüdülür. Terrorizmə fikir versək görərik ki, onunla dözümsüzlük və ekstremizm ideologiyası arasında az fərq var".

Politoloq Moşe Bekker haqlı olaraq yazır: "1975-ci ildə yaradılmış ASALA - Ermənistanın gizli azadlıq ordusu antisemitizm və antitürkizm ideyalarının davamçısı oldu. Onun məqsədi ənənəvi erməni torpaqlarının "azad etmək", Türkiyə hökuməti tərəfindən reparasiya ödənilməsinə nail olmaq və qondarma 1915-ci il soyqırımının Türkiyə hökuməti tərəfindən açıq etiraf edilməsidir. 1980-ci ildə ASALA-nın rəhbəri İraqda doğulmuş Akop Akopyan (Əbu Cihad) oldu. Akopyan 1972-ci ildə Münxendə İsrailin olimpiya yığma komandasının üzvlərinin qətlə yetirilməsində fəal iştirak edib. Beləliklə, millətçilik məntiqi erməni şovinistlərini dünya birliyi tərəfindən pislənilmiş beynəlxalq terrorçu alyansın sıralarına gətirib çıxarıb".

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Hikmət Hacıyev bu yaxınlarda verdiyi bəyanatda maraqlı faktlar göstərib: "1983-cü ildə Fransada Orli hava limanında terror törətmiş ASALA terrorçusu Varujan Qarabedyan 2000-ci ildə müəmmalı şəkildə Fransada həbsdən azad edildi və Ermənistanda qəhrəman kimi qarşılandı və təltif olundu. Varujan Qarabedyan hazırda Ermənistanın hərbi diktatura rejiminin kriminal dayaqlarından biridir".

Hikmət Hacıyevin göstərdiyi digər misal Amerika Erməni Milli Komitəsinin rəhbərlərindən olan Murad Topalyanla bağlıdır. O deyib: "M.Topalyan ABŞ-ın siyasi rəhbər dairələri ilə sıx əlaqələrə malik ola-ola, ABŞ ərazisində ASALA-nın xətti ilə terror əməllərini təşkil edir və yönləndirirdi. Terror əməlləri sübut edildikdən sonra həmin şəxs minimal həbs cəzası aldı və hazırda yenə də Amerika Erməni Milli Komitəsinin rəhbərlərindən biri kimi fəaliyyət göstərir, ABŞ siyasi dairələri ilə sıx əlaqə saxlayır və lobbist fəaliyyəti həyata keçirir, antiazərbaycan təbliğat aparır və hətta ABŞ Konqresinin üzvlərinin Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfərlərini təşkil edir və maliyyələşdirir. Murad Topalyan və onun digər tərəfdaşları Ermənistanın "milli qəhrəmanları" sırasındadır".

Amerikalı jurnalist, siyasi icmalçı Piter Teys bu yaxınlarda yazıb: "Ermənistan öz qonşusu Azərbaycana qarşı terrora başlayıb. Nəticədə Azərbaycan xalqı itkilər və müsibətlərlə üzləşib". Piter Teys təəssüflənir ki, Aİ və ABŞ kimi aparıcı dünya güc mərkəzləri Ermənistan tərəfindən Azərbaycanın dinc əhalisinə qarşı törədilmiş terrorun cavabında susurlar. Piter Teys vurğulayıb: "Mən dünya birliyini Serj Sarkisyanın faşist rejiminin əməllərinə münasibət bildirməyə çağırıram. Ermənilər Dağlıq Qarabağ ərazisindən dünya bazarına narkotik maddələr göndərirlər. Bundan Qərb də əziyyət çəkir. Ermənilər Azərbaycanın etnik mədəniyyətinə və ətraf mühitinə ciddi ziyan vurublar. Ermənistan Avropa üçün və bütün dünya üçün təhlükədir".

Rusiyalı müəllif Olqa Suxova da bu barədə yazıb. O, Rusiyanın nasistlərlə əməkdaşlıq etmiş erməni lideri Njdeyə Armavir şəhərində xatirə lövhəsi vurulması ilə əlaqədar şəhər sakinlərinin hiddətləndiyini bildirir. Şəhər fəalları hər il bu lövhənin çıxarılmasını tələb edirlər. Kubanlı tarixçi Sergey Novikov isə yazır: "Bu insana xatirə lövhəsi vurulması nasionalsosializmin təbliği deməkdir". Məqalə müəllifi soruşur: "Belə iş olarmı? Böyük Vətən müharibəsi qəhrəmanlarına xatirə lövhəsi ilə yanaşı, nasistlərlə əməkdaşlıq etmiş erməni liderinə də xatirə lövhəsi vurulsun?"

Ardı Səh. 7

# “The Jerusalem Post”: Ermənistan terrorçuların populyarlaşdırılmasını dəstəkləməklə faşizmi dövlət siyasətinə çevirib

Əvvəli Səh. 6

Njde 1942-ci ildə Berlində yaradılmış “Erməni milli şurası”na daxil olub və öz həmyerlilərini SSRİ-yə qarşı silahlı mübarizəyə çağırıb. Njde faşistlərlə əməkdaşlıq etdiyini görə 25 il azadlıqdan məhrum edilib və həbs olunub, 1955-ci ildə həbsxanada xəstəlikdən ölüb. İndi isə 57 ildən sonra birdən-birə Armavirdə (Njdenin bu şəhərə heç bir aidiyyəti yoxdur, sadəcə burada onun həmyerliləri yaşayır), erməni məbədinin ərazisində bu adamın şərəfinə xatirə lövhəsi vurulub. Bir ildən sonra isə həmin memorial üzərində 1918-ci ildə Azərbaycanda mart qırğınında əli olan başqa şəxslərin: azərbaycanlılarla yanaşı 3000-dən çox yəhudini məhv etmiş çar ordusunun general-mayoru Andranik Ozanyanın və Amazasp Babacanyanın da adları yazılır.

Qutun fikrincə, faşizmin və terrorizmin populyarlaşdırılması üçün erməni millətçilərin bu cür fəaliyyəti nəticəsində son illərdə dünyanın bir sıra dövlətlərində Ermənistanın və erməni millətçilərinin adları terrorizm və faşizm ilə assosiasiya doğurur. Müəllif yazır: “Bu günlərdə hətta Rusiya Müdafiə Nazirliyinin rəsmi orqanı olan “Zvezda” telekanalında göstərilmiş bir süjetdə rəsmi Yerevan faşistlərinin əlaltılarını qəhrəmanlar kimi qələmə verməkdə ittiham edilib. Lakin bu da Ermənistan prezidentini və onun komandasını dayandırmır, onlar terrorçuların və faşistlərin populyarlaşdırılmasını, beləliklə bütün dünyaya meydan oxumağı davam etdirirlər.

Njde, Drastaman Kanoyan və başqalarından sonra Sarkisyan və onun komandası daha bir beynəlxalq terrorçunu populyarlaşdırmağı qərara alıblar. Ermənistan prezidenti lap yaxın günlərdə Ermənistanın Dilican şəhərində “milli qəhrəman” Monte Melkonyan adına Hərbi İdman Məktəbinin rəsmi açılış mərasimi münasibətilə keçirilən tədbirdə iştirak edib. Adı məktəblərə, küçələrə verilmiş bu “milli qəhrəman” tərəfindən törədilmiş “igidlikləri” xatırlatmaq istərdik. Melkonyan bütün dünyada məşhur terrorçu, ASALA terror təşkilatının üzvü olub. Melkonyan Azərbaycandan əlavə İtaliya və Yunanıstan kimi Avropa ölkələrində də terror aktları həyata keçirib. 1985-ci ilin noyabrında Melkonyan Parisdə həbs edilib, qanunsuz silah saxlanmasına və sənədlərin saxtalaşdırılmasına görə 6 il həbs cəzasına məhkum edilib, lakin 1989-cu ildə o, müəmmalı şəkildə həbsdən azad edilib və Cənubi Yəmənə sürgün olunub. 1991-ci ildə bu terrorçu Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə gəlib, orada milliyyətcə azərbaycanlı olan qocaların, qadınların və uşaqların kütləvi şəkildə qətlə yetirilməsində ən fəal formada iştirak edib. 1993-cü ilin iyun ayında qaniçən erməni terrorçu döyüş əməliyyatları zamanı Azərbaycan hərbi qulluqçuları tərəfindən məhv edilib.

Məqalə müəllifi yazır: “Dünya birliyi artıq indi belə bir məsələ üzərində fikirləşməlidir: terrorçunun adını daşıyan bu hərbi idman tədris müəssisəsində kimləri hazırlamaq niyyətindədirlər? Cavab aydındır: bu məktəb təkcə Dağlıq Qarabağ üçün deyil, həm də erməniləri yığcam şəkildə yaşadığı bütün ölkələr üçün potensial təxribatçılar və terrorçular hazırlayacaq. Bu terrorçular erməni millətçilərin xoşuna gəlməyən dövlətlərlə və bu cür şəxslərlə “hesabı çürüdəcəklər”.

Arye Qut vurğulayır ki, Serj Sarkisyan faşizmin əsas məqsədlərindən birini - terrorçu “Daşnaksütyun” partiyasının və Njde, Dro və Melkonyan kimi “qəhrəmanların” Ermənistanı monoetnik dövlətə çevirmək ideyalarını həyata keçirir.

İsraildəki “Cəmiyyət üçün beynəlxalq layihələr” adlı qeyri-hökumət təşkilatının başçısı, beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert Arye Qut İsraildə çıxan nüfuzlu ingilisdilli “The Jerusalem Post” qəzetində dərc edilmiş məqaləsinin sonunda yazır: “Bütün bunlar belə deməyə əsas verir ki, Ermənistan terroru dövlət səviyyəsində dəstəkləyən ölkədir. Əgər dünya birliyi Ermənistanda faşizmin və terrorizmin təbliğinin cavabında bundan sonra da susmaqda davam edərsə, onda sabah Yerevanın mərkəzində Njdenin heykəli ilə yanaşı Hitlerə də abidə qoyulsa, heç kəs heyrətlənməsin”.

# AZƏRTAC təqdim edir: Media və zamanın çağırışları

***“Media və zamanın çağırışları” - AZƏRTAC-ın geniş oxucu auditoriyasına təqdim etdiyi kitab belə adlanır. Azərbaycan və ingilis dillərində nəşr olunan kitabda təxminən bir il əvvəl - 2016-cı ilin noyabrında Heydər Əliyev Fondunun və AZƏRTAC-ın təşkilatçılığı ilə Bakıda keçirilmiş iki mötəbər media forumunun - Dünya Xəbər Agentliklərinin V Konqresinin və Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) XVI Baş Assambleyasının materialları toplanıb.***

Müasir dövrümüzdə media, xüsusən xəbər agentlikləri hansı çağırışlarla üzləşirlər? Hazırda qlobal informasiya məkanında nələr baş verir, redaksiyalar və jurnalist kollektivləri öz işlərini zamanın tələbinə necə uyğunlaşdırırlar? Bu sahədə nə kimi təcrübə və yeniliklər var?

Nəfis tərtibatla nəşr olunmuş kitabda oxucular, xüsusən media mütəxəssisləri və jurnalistlər, informasiya agentliklərinin və xəbər portallarının əməkdaşları onları maraqlandıran bu və digər suallara cavab tapa bilərlər. Belə ki, dünyanın informasiya siyasətini müəyyənləşdirən tanınmış simaların, məsələn, Press Association agentliyinin baş icraçı direktoru Klayv Marşal, TASS agentliyinin baş direktoru Sergey Mixaylov, Saudi Press agentliyinin prezidenti Abdullah bin Fəhd Əl-Hüseyn, Avropa Xəbər Agentlikləri Alyansının (EANA) prezidenti Yonas Erikson, Ərəb Xəbər Agentlikləri Federasiyasının (FANA) prezidenti Şeyx Mübarək Düeyc Əl-İbrahim Əl-Sabah, Associated Press agentliyinin vitse-prezidenti Con Danişevski, AZƏRTAC-ın baş direktoru Aslan Aslanov və başqalarının Konqresdə və Baş Assambleyadakı çıxışlarında, habelə media üzrə ekspertlərin təqdimatlarında KİV-in üzləşdiyi çağırışlar, yeni həllər, müasir informasiya texnologiyalarının tətbiqi barədə bir çox maraqlı fikirlər və diqqətçəkən məqamlar var. Təbii ki, bütün bunlar Azərbaycanın media işçiləri üçün də aktualdır və həyati əhəmiyyət daşıyır.

Konqresdə və Baş Assambleyada səslənən çıxışları və təqdimatları, rəyləri və digər informasiyaları bir yerə toplayaraq nəşr etmək ideyası təsadüfən yaranmayıb. Tərtibatçının məqsədi, ilk növbədə, hər iki qlobal miqyaslı tədbirin Azərbaycan üçün böyük əhəmiyyətini nəzərə alaraq bu hadisəni tarixləşdirməkdir.



Prezident İlham Əliyev belə bir vacib, qlobal və beynəlxalq tədbirlərə ev sahibliyi etməyi ölkəmiz üçün böyük şərəf adlandırıb, bunu, eyni zamanda, müasir medianın inkişafı sahəsində Azərbaycanın fəaliyyətinin və nailiyyətlərinin yüksək qiymətləndirilməsinin göstəricisi kimi səciyyələndirib. BMT-nin baş katibi Pan Gi Munun, UNESCO-nun baş direktoru İrina Bokovanın forumlara müraciətlər ünvanlaması da, tədbirlərin qlobal əhəmiyyətindən xəbər verir.

Bakı ilk dəfə belə irimiqyaslı, geniş tərkibli media forumlarına ev sahibliyi edib. AZƏRTAC həm Konqresə, həm də OANA-ya rəhbərlik etmək hüququ qazanıb. Bununla da Azərbaycanın və AZƏRTAC-ın adları dünya media tarixinə həkk olunub. İştirakçıların sayı və tərkibi haqqında statistika özü hər şeyi deyir: Bakıya 80 ölkədən 100-ə yaxın xəbər agentliyinin 190-dək rəhbəri və təmsilçisi, media üzrə ekspertlər, BMT-nin rəsmi nümayəndəsi, habelə regional media qurumlarının rəhbərləri gəlmişdi. Onların sırasında Avropanın 23 ölkəsindən 30 agentliyin 51 təmsilçisi, Asiyanın 31 ölkəsindən 39 agentliyin 77, Afrikadan 16 agentliyin 25, Amerika qitəsindən 9 agentliyin 17, Avstraliyadan 3 agentliyin 4 nümayəndəsi vardı. Kitabı vərəqlədikcə aydın görmək olur ki, Azərbaycana informasiya işinin əsl biliciləri, peşəkarları toplaşmışdılar.

Digər tərəfdən, Azərbaycan Prezidenti İlham Əliyevin açılış mərasimində iştirakı, geniş nitq söyləməsi, sonradan iştirakçıların bir qrupunu qəbul etməsi bu genişmiqyaslı, dünyanın beş qitəsini əhatə edən tədbirlərə xüsusi ahəng və məna verdi. V Konqres və XVI Baş Assambleya nəticə etibarilə müasir media institutları, jurnalistlər üçün bir məktəb, qabaqcıl təcrübəni bölüşmək üçün bənzərsiz platforma oldu.

Oxucuya təqdim olunan kitaba Azərbaycan Prezidenti İlham Əliyevin Konqresin və Baş Assambleyanın birgə açılış mərasimindəki nitqinin tam mətni, habelə tədbir iştirakçılarının bir qrupu ilə görüşünün xülasəsi daxil edilib. Dövlətimizin başçısı nitqində demokratiya və mətbuat azadlığı, medianın müasir dövrdəki missiyası və məsuliyyəti barədə maraqlı fikir və mülahizələr irəli sürüb. İştirakçılardan bir qrupu ilə görüşü zamanı onların suallarını cavablandırıb və yeri gəldikcə açıq söhbət edərək polemikaya girib, KİV-in beynəlxalq hadisələrdəki roluna dair baxışlarını bölüşüb. Bunlar əslində, jurnalistika dərsləridir və burada diqqətəlayiq bir çox məqamlar var.

Konqresin aktuallığını beş sessiya çərçivəsində müzakirəyə çıxarılan mövzulardan aydın görmək olar: “Xəbər istehlakının gələcəyi”, “Xəbər agentlikləri - yeni texnologiyaların və sosial medianın çağırışları və imkanları”, “Xəbər agentliklərinin innovasiyası”, “Multimedianın gələcəyi üçün jurnalistlərin təlimi”, “Jurnalistlərin missiyasının qorunması: azadlıq, çıxış imkanı, təhlükəsizlik və münaqişə zonaları”. Kitabda bu sessiyaların hər birinin materialları ayrıayrılıqda dərc olunub.

Topluda “Xəbər agentlikləri üçün yeni çağırışlar” devizi ilə işləyən Bakı Konqresində, OANA-nın Baş Assambleyasında səslənən bütün çıxış və təqdimatlar, habelə BMT-nin baş katibi Pan Gi Munun, UNESCO-nun baş direktoru İrina Bokovanın forum iştirakçılarına ünvanlanan müraciətlərinin mətni yer alıb. Kitabda, həmçinin hər iki forumla bağlı çoxsaylı rəylər, müsahibələr, dünya mediasında yer alan informasiyalar ilə tanış olmaq mümkündür. Bütün bu materiallar fotolarla müşayiət olunur.

AZƏRTAC tədbirlərin qlobal əhəmiyyətini, müzakirə olunan mövzuların bütün KİV-lər üçün aktuallığını nəzərə alaraq, V Konqresin və XVI Baş Assambleyanın materiallarını bir kitabda toplamağı, maraqlanan hər kəs üçün əlçatan olmasını təmin etməyi lazım bilib. Doğrudan da burada öyrəniləsi, nəticə çıxarılası bir çox məsələlər, jurnalistlər üçün faydalı məqamlar, düşünmək üçün yetərincə mövzu var.

# Azərbaycan media təmsilçiləri İstanbulda səfərdədirlər

***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) təşkilatçılığı ilə ölkəmizin media qurumlarının təmsilçilərindən ibarət 14 nəfərlik nümayəndə heyətinin Türkiyənin İstanbul şəhərinə səfəri başlayıb.***

KİVDF-dən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətinin Türkiyənin informasiya məsələlərinə məsul qurumlarında, aparıcı KİV-lərin redaksiyalarında, o cümlədən müxtəlif iqtisadi, mədəni yönümlü təşkilatlarda görüşləri nəzərdə tutulub.

Səfər proqramı dekabrın 13-də ümummilli lider Heydər Əliyevin İstanbul şəhərindəki abidəsinin ziyarət edilməsi ilə başlayıb. KİV təmsilçiləri Ümummilli Liderin abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar. Türkiyə Xarici İqtisadi Əlaqələr Qurumuna (DEİK) gələn Azərbaycan media təmsilçilərini qurumun sədr müavini Çingiz Gül qarşılayıb. O, nümayəndə heyəti ilə görüşdə təmsil etdiyi qurumun dünya ölkələrində, o cümlədən Azərbaycanda gerçəkləşdirdiyi layihələr barədə məlumat verib. DEİK təmsilçisi Azərbaycanla bağlı layihələrdə Naxçıvan Muxtar Respublikasına xüsusi diqqət yetirildiyini də önə çəkib. Azərbaycanın təşəbbüsü ilə gerçəkləşdirilən Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsindən sonra qurumun ölkəmizlə bağlı daha böyük layihələri reallaşdıracağını bildirib. DEİK təmsilçisi planlaşdırılan layihələrin uğurla tamamlanması üçün medianın verə biləcəyi faydalar barədə fikirlərini bölüşüb.



Türkiyə Turizm Agentlikləri Birliyində Azərbaycan media təmsilçilərini təşkilatın xarici əlaqələr üzrə əlaqələndiricisi Gülberk Aşyarap və departament rəhbəri Fatih Gönül qarşılayıblar. Gülbek Aşyarap Azərbaycanla qarşılıqlı turist axınının gücləndirilməsi yönündə layihələndirilən proqramlar barədə məlumat verilib. Azərbaycanda ciddi turizm potensialının olduğunu vurğulayan G.Aşyapar bu sahənin inkişafı üçün qarşılıqlı əlaqələrin gücləndirilməsinin faydalı olduğunu qeyd edib. O, layihələrin uğurla tamamlanması, hər iki ölkədə turizmin inkişafı üçün medianın dəstəyinə ümid etdiklərini deyib. Qeyd edək ki, Azərbaycan media təmsilçilərinin İstanbula səfər proqramı dekabrın 17-dək davam edəcək.

# Bakının "Ekspo 2025" Ümumdünya Sərgisinə ev sahibliyinə namizəd şəhər olması ilə bağlı təqdimat keçirilib




***Dekabrın 14-də Heydər Əliyev Mərkəzində Bakının "Ekspo 2025" Ümumdünya Sərgisinə (World Expo 2025) ev sahibliyinə namizədliyini irəli sürməsi ilə bağlı Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələri üçün təqdimat keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə diplomatik korpusun nümayəndələri ilə yanaşı, dövlət və hökumət rəsmiləri də iştirak ediblər.***

Təqdimat mərasimində Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Beynəlxalq Sərgilər Bürosunda Azərbaycan nümayəndə heyətinin rəhbəri Elçin Əmirbəyov və "Ekspo 2025 Bakı" Əməliyyat Katibliyinin icraçı direktoru Pol Foster çıxış ediblər.

Tədbirdə Azərbaycanın "Ekspo 2025" Ümumdünya Sərgisinə namizədliyini irəli sürməsi istiqamətində görülən işlər və atılacaq addımlar barədə məlumat verilib. Bildirilib ki, may ayının 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakının 2025-ci il Ümumdünya Sərgisinə ev sahibliyi etməsi üçün namizədliyinin irəli sürülməsi barədə məktubu Beynəlxalq Sərgilər Bürosuna (BSB) təqdim edilib.

Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov "Ekspo 2025" Ümumdünya Sərgisinə Bakının namizəd şəhər olması münasibətilə noyabrın 14-də Parisdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın iştirakı ilə təşkil olunan qəbul barədə danışaraq deyib: "Azərbaycanın Birinci vitse-prezidenti həmin mərasimdə 320-dən çox nümayəndə qarşısında mühüm nitqlə çıxış etdi. Həmin qəbul zamanı biz ölkəmizi, onun namizədliyini, mədəniyyətimizi, mətbəximizi 160-dan çox ölkənin nümayəndələrinə təqdim etmək şansı qazandıq. "Ekspo" sərgisi digər mötəbər tədbirlərdən fərqlidir. Dünya sərgisi ictimaiyyəti məlumatlandırmaq baxımından mühüm əhəmiyyət kəsb edir".





Azərbaycanın bu mötəbər tədbirə ev sahibliyi etməsi ilə dünyanın müxtəlif ölkələrindən gələn insanlara xalqımızın qonaqpərvərliyini, füsunkar təbiətini nümayiş etdirmək imkanı qazanacağını deyən Anar Ələkbərov bildirib ki, ölkə iqtisadiyyatının bir çox sektorları da dünya sərgisinə ev sahibliyi faktından bəhrələnəcək.

Azərbaycan hökuməti tərəfindən layihəyə yüksək siyasi dəstəyin göstərildiyini diqqətə çatdıran Anar Ələkbərov ölkəmizin "Ekspo" Ümumdünya Sərgisini 2025-ci ildə Bakıya gətirməyə iddialı olduğunu qeyd edərək deyib: "Azərbaycan əsrlər boyu mədəniyyətlərin və sivilizasiyaların kəsişməsində yerləşib. Özünün unikal və geostrateji mövqeyi ilə ölkəmiz Şərq ilə Qərb, Şimal ilə Cənub arasında siyasi, ticari və mədəni körpü rolunu oynayır. Qədim İpək Yolu müasir Azərbaycanın ərazisindən keçir. 1991-ci ildən müstəqillik bərpa olunduqdan sonra ölkəmizdə minlərlə məktəb, səhiyyə ocaqları, idman kompleksləri tikilib, yoxsulluq və işsizlik 5 faizdən aşağı səviyyəyə düşüb. Savadlılıq 99 faizdən artıqdır. İqtisadiyyatımız 2004-cü ildən bəri 3 dəfədən çox artıb. Bakı çoxmədəniyyətli və mədəniyyətlərarası dialoqun tanınmış beynəlxalq mərkəzinə çevrilib. Biz dünyəvi cəmiyyətdə birgə yaşayırıq".

Heydər Əliyev Mərkəzinin direktoru Birləşmiş Ərəb Əmirliklərinin Dubay əmirliyində "Ekspo 2020" Ümumdünya Sərgisi üçün əsas hazırlıqlardan biri hesab olunan 2-ci beynəlxalq iştirakçılar toplantısında iştirakı və Azərbaycan Respublikasının "Ekspo 2020 Dubay" sərgisində iştirakı haqda imzalanan müqavilə barədə də məlumat verib.

Azərbaycanın beynəlxalq tədbirlərin keçirilməsi sahəsindəki uğur və təcrübəsindən danışan Anar Ələkbərov ölkəmizin bu günədək Dünya Dini Liderlərinin Sammiti, Bakı Beynəlxalq Humanitar forumları, BMT-nin Sivilizasiyalar Alyansının VII Bakı Qlobal Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları, "Bakı-2015" birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları və digər beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi etdiyini bildirib. O, Azərbaycanın istər siyasi, istərsə də iqtisadi müstəvidə dünya ölkələrinin etibarlı tərəfdaşına çevrildiyini qeyd edib.

Azərbaycanın Beynəlxalq Sərgilər Bürosunun tamhüquqlu üzvü olduğunu deyən Anar Ələkbərov ölkəmizin 2000-ci ildən "Ekspo" sərgilərində iştirak etdiyini xatırladıb. O, 2015-ci ildə Milan şəhərində keçirilən "Ekspo" sərgisində Azərbaycanın milli

# Bakının “Ekspo 2025” Ümumdünya Sərgisinə ev sahibliyinə namizəd şəhər olması ilə bağlı təqdimat keçirilib






pavilyonunun dizayn və məzmun baxımından böyük uğurla ziyarət edildiyini, “Azərbaycan: Biomüxtəlifliyin xəzinəsi” adlanan pavilyonun mükafatla təltif olunduğunu bildirib. Birinci vitse-prezidentin köməkçisi “Ekspo 2016 Antalya” Beynəlxalq Botanika Sərgisində Azərbaycan pavilyonunun eksteryer və interyer bağçası nominasiyasında 1-ci yerə, Astanada keçirilən “Ekspo 2017 - Gələcəyin enerjisi” Beynəlxalq sərgisində “Enerji Yurdu - keçmişdən gələcəyə daşınan enerji” devizinə əsaslanan Azərbaycan pavilyonunun “Sərgi dizaynı” nominasiyasında mükafata layiq görüldüyünü qeyd edib. Anar Ələkbərov Azərbaycanın Milan, Antalya və Astanada təşkil olunan ümumdünya sərgilərində yüksək səviyyədə iştirakına dövlətimiz tərəfindən göstərilən dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib.

Azərbaycanın siyasi cəhətdən stabil və daim inkişafda olan ölkə olduğunu bir daha vurğulayan Anar Ələkbərov ölkəmizdə 2019-cu ildə Avropa Gənclər Festivalı, 2020-ci ildə karate üzrə Avropa çempionatı və “Avro-2020” futbol yarışlarının qrup və dörddəbir final mərhələsinin oyunlarının keçiriləcəyini deyib. O, ölkəmizin avtomobil yarışlarına da uğurla ev sahibliyi etdiyini deyərək, Azərbaycan Avtomobil Federasiyasının yaxından iştirakı ilə Bakıda 2016-cı ildən Formula-1 yarışlarının təşkil olunduğunu və bu layihənin paytaxtımızda qarşıdakı illərdə də davam edəcəyini diqqətə çatdırıb. Anar Ələkbərov “Ekspo 2025 Bakı” layihəsinin dövlətlə yanaşı, geniş ictimaiyyət tərəfindən də dəstəkləndiyini qeyd edib.

“Dünya Ekspo sərgisini qəbul etmək genişmiqyaslı mötəbər tədbirlərin təşkilində sübuta yetirdiyimiz təcrübənin məntiqi davamı olardı. Düşünürəm ki, “Ekspo 2025”də bütün dünyanı gözəl ölkəmizdə və paytaxtımızda salamlamaq zamanı yetişib”, - deyə Heydər Əliyev Mərkəzinin direktoru vurğulayıb.

Azərbaycanın Beynəlxalq Sərgilər Bürosundakı nümayəndə heyətinin rəhbəri Elçin Əmirbəyov çıxışında “Ekspo 2025 Bakı” layihəsi çərçivəsində bu günədək görülən işlər və 2018-ci ilin noyabr ayında keçiriləcək “Ekspo 2025” Ümumdünya sərgisinin ev sahibini müəyyən edəcək seçkilərə qədər atılacaq addımlar barədə məlumat verib. Bildirib ki, 2017-ci ilin sentyabr ayının sonlarında Bakının “Ekspo 2025” Ümumdünya Sərgisinə dair namizədlik dosyesi BSB-yə təqdim edilib. Növbəti on bir ay ərzində BSB Azərbaycan tərəfindən sərginin keçirilməsi üçün irəli sürülən mövzu və “Ekspo 2025” Ümumdünya Sərgisinin təşkili üçün hazırlanan layihə sənədi ilə yaxından tanış olacaq.

Elçin Əmirbəyov “Ekspo 2025” Ümumdünya Sərgisinə Bakının namizəd şəhər olması münasibətilə noyabrın 14-də Parisdə təşkil olunan qəbulda Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın iştirakı və çıxışını dövlətimizin bu beynəlxalq tədbirə ev sahibliyinə verdiyi böyük əhəmiyyətin təzahürü kimi qiymətləndirib. Noyabrın 15-də isə Parisdə Beynəlxalq Sərgilər Bürosunun Baş Assambleyasının 162-ci sessiyasında Bakı şəhərinin “Ekspo 2025” Ümumdünya sərgisinə ev sahibliyi etməsi üçün təqdimat keçirildiyini bildirib.

“Ekspo 2025 Bakı” bütün dünyanı birləşdirəcək, önəmli müzakirələrin aparıldığı, səmərəli işin görüldüyü qlobal platforma kimi təqdim olunmalıdır. Bu ideyalar Azərbaycanın uzunmüddətli milli inkişaf strategiyası ilə uyğunluq təşkil edir. “Ekspo 2025” sərgisi üçün Azərbaycanın təklif etdiyi “İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq” mövzusu da universal bir mövzudur və bəşəriyyət üçün aktualdır”, - deyən Elçin Əmirbəyov mövzunun Azərbaycan üçün vacib və beynəlxalq inkişaf gündəliyinə, xüsusilə də BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olduğunu vurğulayıb. O deyib ki, Azərbaycan bütün dünyanı bir araya gətirmək istəyir. Bununla da bəşəriyyətin, insanların inkişaf imkanlarını araşdırmaq üçün mühüm məqam yaranacaq. Onun sözlərinə görə, “Ekspo 2025 Bakı” sərgisi beynəlxalq inkişaf gündəliyində duran qlobal məsələlərin müzakirəsi və bəşəriyyətin xeyrinə çıxış yollarının tapılması baxımından universal platforma rolunu oynayacaq.

Elçin Əmirbəyov BSB tərəfindən Ümumdünya Sərgisinin bu günədək Şərqi Avropa, Qafqaz və Xəzər hövzəsi regionunda keçirilmədiyini də diqqətə çatdırıb. O bildirib ki, “Ekspo 2025” sərgisinin Bakıda təşkili ilə bu beynəlxalq tədbirin keçirildiyi ənənəvi coğrafiya genişlənə bilər. Nümayəndə heyətinin rəhbəri sərginin Azərbaycanda yerli biznes imkanlarının artması ilə yanaşı, dünyanın aparıcı biznes şirkətlərinin də bir araya gəlməsində, yeni sərmayələrin qoyulması və biznes əlaqələrinin qurulmasında müstəsna rol oynayacağını bildirib. Vurğulayıb ki, “Ekspo 2025” Ümumdünya sərgisi son illər turistlərin böyük maraq göstərdiyi Azərbaycana daha çox qonağın gəlməsinə də müsbət təsir göstərəcək.

“Ekspo 2025 Bakı” Əməliyyat Katibliyinin icraçı direktoru Pol Foster layihənin əsas texniki parametrləri, eyni zamanda, BSB-nin qiymətləndirmə missiyasının 2018-ci ilin mart ayında Bakıya səfərinə hazırlıq işlərinin aparılması barədə məlumat verib. Pol Foster bildirib ki, “Ekspo 2025 Bakı” sərgisi üçün nəzərdə tutulan ərazi Bakı şəhərinin şərq hissəsində yerləşir. Paytaxtın davamı hesab edilə biləcək bu məkanın 200 hektar ərazisi var. Ərazinin Azərbaycan Respublikasının dövlət gerbi olan səkkizbucaqlı ulduz şəklində görünəcəyi diqqətə çatdırılıb.

Pol Fosterin sözlərinə görə, qədim tarixə, mədəniyyətə, özünəməxsus qonaqpərvərliyə malik Azərbaycanın ilk dəfə olaraq Ümumdünya Sərgisinə ev sahibliyi etməsi uğrunda mübarizəyə qoşulması ölkənin özünə inamından, bacarıq imkanlarından, siyasi və iqtisadi müstəvidə inkişafından xəbər verir. Bakı Azərbaycana təşrif buyuran hər bir turist üçün maraqlı, tarixi, gəzib-görməli yer olmaqla yanaşı, eyni zamanda, özünü təhlükəsiz hiss edəcəyi ən etibarlı şəhərdir. Pol Foster noyabrın 14-dən etibarən www.bakuexpo2025.com saytının fəaliyyətə başladığını bildirib. Saytda sərginin həyata keçirilməsi istiqamətində əsas məqamlar öz əksini tapıb. Tədbirdə Azərbaycanın mədəniyyəti, tarixi, adət və ənənələri, dini tolerantlığı, eyni zamanda, ölkəmizin ev sahibliyi etdiyi mötəbər tədbirlər və Azərbaycanın təklif etdiyi “Ekspo” mövzusu ilə bağlı videoçarxlar nümayiş olunub.

# “700 min ağac əkək” kampaniyası uğurla davam edir

## Nizami

Nizami rayon icra hakimiyyəti YAP Nizami rayon təşkilatı ilə birgə Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibətilə “700 min ağac əkək” aksiyası çərçivəsində növbəti ağacəkmə aksiyası keçirib.





Ekoloji mühitin sağlamlaşdırılması məqsədilə keçirilən aksiyada partiya fəalları, könüllülər, ziyalılar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Aksiya zamanı 600-ə yaxın ağac əkilib. Ümumiyyətlə, cari ilin oktyabrından başlanan ”700 min ağac əkək” aksiyası çərçivəsində indiyədək Nizami rayonu ərazisində 1000-ə yaxın müxtəlif növ ağac əkilib. Yeni əkilən ağaclara lazımi aqrotexniki qulluq göstərilib. Gələn ilin martınadək davam edəcək aksiya çərçivəsində rayon ərazisində daha 1000 min ağacın əkilməsi nəzərdə tutulur.

## Biləsuvar





Biləsuvar rayonunda Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi ilə əlaqədar “700 min ağac əkək” kampaniyası davam etməkdədir.

YAP Biləsuvar rayon təşkilatının və Meşə Mühafizəsi və Bərpası İdarəsinin birgə təşkilatçılığı ilə növbəti ağacəkmə aksiyası keçirilib. Meşə Mühafizəsi və Bərpası İdarəsinin xidməti ərazisində meşə fondu torpağında 1000 ədəd nar ağacı əkilib. Çox böyük fəallıqla həyata keçirilən ağacəkmə kampaniyasında rayonun idarə, müəssisə və təşkilatlarında çalışan yüzlərlə YAP üzvü xüsusi fəallıqla iştirak edib.

Qeyd edək ki, ağacəkmə aksiyası, müntəzəm olaraq, davam etdiriləcək. Növbəti mərhələdə 2000 ədəd ağacın əkilməsi nəzərdə tutulub.

## Tərtər

Yeni Azərbaycan Partiyasının “700 min ağac əkək” kampaniyası çərçivəsində Tərtər rayonunda da ağacəkmə tədbirləri davam etdirilir.





YAP Tərtər rayon təşkilatı və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə Bərdə Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin Tərtər rayonun Buruc-Hüləbətli kəndləri ərazisində yerləşən meşə zolağının 3 hektar sahəsində 4 min ədəd ağacın əkilməsi başa çatdırılmışdır. Ağacəkmə kampaniyasında rayon icra hakimiyyətində, idarə, müəssisə və təşkilatlarda çalışan yüzlərlə YAP üzvləri xüsusi fəallıqla iştirak etmişlər.

Məlumat üçün bildiririk ki, Bərdə Meşə Mühafizəsi və Bərpası Müəssisəsi ilə YAP Tərtıər rayon təşkilatının, razılaşdırılmış qrafikinə uyğun olaraq, ağacəkmə kampaniyası davam etdiriləcəkdir.

## Qax

Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi ilə əlaqədar YAP Qax rayon təşkilatının və rayon Me-



şə Mühafizəsi və Bərpası İdarəsinin birgə təşkilatçılığı ilə “700 min ağac əkək” kampaniyası çərçivəsində ağacəkmə aksiyası keçirilib.



Aksiyada YAP Qax rayon təşkilatının fəalları, ictimaiyyət nümayəndələri və eləcə də, gənclər birliyinin üzvləri iştirak ediblər.

Qax rayonunun Kiçik Alatəmir kəndi ərazisində aksiya iştirakçıları tərəfindən 2000 ədəd fındıq tingi basdırılaraq suvarılmışdır. Yeni Azərbaycan Partiyası Qax rayon təşkilatı ağacəkmə kampaniyası dövründə, tədbirlər planına uyğun olaraq, mərhələli şəkildə partiya üzvlərinin sayına görə, yəni 4500 ədəd ağac əkməyi planlaşdırır.

## Böyük Britaniya Azərbaycan iqtisadiyyatına 27 milyard ABŞ dollarından çox investisiya yatırıb



İndiyədək Böyük Britaniya Azərbaycan iqtisadiyyatına 27 milyard ABŞ dollarından çox investisiya yatırıb. İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iqtisadiyyat naziri, Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın həmsədri Şahin Mustafayev ölkəmizdə səfərdə olan Böyük Britaniyanın ticarət və ixracın təşviqi üzrə naziri, Hökumətlərarası Komissiyanın Britaniya tərəfdən həmsədri Baronessa Rona Feyrhed ilə görüşüb, ölkələrimiz arasındakı mövcud iqtisadi əlaqələrə və əməkdaşlıq perspektivlərinə dair müzakirələr aparılıb.

Nazir Şahin Mustafayev Azərbaycanın Böyük Britaniya ilə ikitərəfli əlaqələrə önəm verdiyini, ölkələrimizin iqtisadiyyatın müxtəlif sahələrində uğurla əməkdaşlıq etdiyini vurğulayıb. Qeyd olunub ki, ölkəmizdə Britaniya sərmayəli 500-dən çox şirkət fəaliyyət göstərir. Azəri-Çıraq-Günəşli layihəsinin bu ilin sentyabrında 2050-ci ilədək uzadılmasının tarixi əhəmiyyətini qeyd edən nazir Şahin Mustafayev Azərbaycanın Britaniyanın BP şirkəti ilə neft-qaz hasilatı sahəsində uğurlu əməkdaşlıq etdiyini bildirib. BP şirkəti ölkəmizdə neft-qaz sahəsində 7 layihədə iştirak edir, Bakı-Tbilisi-Ceyhan, Cənub Qaz Dəhlizi, o cümlədən TANAP və TAP layihələrində paya malikdir. Azərbaycana yatırılan investisiyaların həcminə görə Böyük Britaniya ilk yerdədir. İndiyədək Azərbaycan iqtisadiyyatına Böyük Britaniya tərəfindən 27 milyard ABŞ dollarından çox investisiya qoyulub. Azərbaycan gəncləri dünyanın aparıcı universitetlərində, eləcə də Böyük Britaniyada təhsil alırlar.

Böyük Britaniyanın ticarət və ixracın təşviqi üzrə naziri, Hökumətlərarası Komissiyanın Britaniya tərəfdən həmsədri Baronessa Rona Feyrhed Azərbaycanın iqtisadi sahədə əldə etdiyi nailiyyətləri, Böyük Britaniya şirkətləri, o cümlədən BP ilə əməkdaşlığı xüsusilə qeyd edib. İqtisadiyyatın müxtəlif sahələri üzrə əlaqələrin inkişafı üçün potensialın böyük olduğunu vurğulayan Baronessa Rona Feyrhed bu baxımdan Hökumətlərarası Komissiyanın iclasının keçirilməsinin önəmini vurğulayıb, bir sıra sahələrdə əməkdaşlıq imkanlarının nəzərdən keçirildiyini diqqətə çatdırıb.

# Azərbaycanın turizm potensialı və ölkənin tanıdılması geniş kütləyə çatdırılacaq

***Müasir dünyada turizm hər bir ölkə üçün iqtisadiyyatın ən dinamik inkişaf edən sahələrindən biri sayılır. Azərbaycanda da turizmin inkişafına ciddi diqqət göstərilir. Turizm artıq bütün dünyada ən gəlirli sahələrdən birinə, geniş və sürətlə inkişaf edən iqtisadi sektora çevrilib. Turizm sektorunun davamlı olaraq inkişaf etməsi və genişlənməsi bu sektoru sosial-iqtisadi tərəqqidə əsas aparıcı qüvvəyə çevirib. Bu, özünü yeni iş yerlərinin yaradılması, turizmlə bağlı müəssisələrin və infrastrukturun qurulmasında göstərir.***

Azərbaycan kontekstində də ölkənin diversifikasiyası, regionların inkişafı üçün, məhz bu sahə həlledici əhəmiyyət kəsb edir. Turizmdə Azərbaycanın rəqabət imkanları çox genişdir. Təbii sərvətlərimiz, rəngarəng iqlimimiz və zəngin tarixi-mədəni irsimiz cəlbedici turizm məhsulu yaratmaq üçün mühüm zəmindir. Bununla yanaşı, Azərbaycan dövləti turizmin inkişafını iqtisadiyyatın qeyri-neft sektoru üzrə prioritet istiqamət elan edib. Son illər ərzində ölkədə turizmin təşviqi ilə bağlı görülən işlər, aparılan islahatlar, qəbul edilən dövlət proqramları və normativ-hüquqi bazanın təkmilləşdirilməsi bunu bir daha sübut edir. Bu tədbirlər nəticəsində Azərbaycanda turizm sənayesi yeni mərhələyə qədəm qoyub, ölkəmiz dünyada yeni turizm istiqaməti kimi tanınmağa başlayıb və beynəlxalq turizm bazarına inteqrasiya ilbəil daha geniş şəkildə təmin olunur.

Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı, digər sahələrdə olduğu kimi, turizm sahəsində də öz bəhrəsini vermiş və bu sahədə bir sıra dövlət proqramları təsdiq edilmişdir. Ölkə Prezidenti İlham Əliyev öz çıxışlarında, mütəmadi olaraq, normativ- hüquqi bazanın yenilənməsinə, 2013-cü ildən etibarən digər turizmin inkişaf etmiş ölkələrində olduğu kimi, elektron viza sisteminin tətbiq edilməsinə, turizm sahəsində prioritet olan ölkələrin təcrübəsinə əsasən hava limanlarında vizanın verilməsi məsələlərinin diqqətində olmasını vurğulayıb.



Dünyada Azərbaycan turizm ölkəsi kimi də tanınır. Xarici dövlətlərin müxtəlif tanınmış mətbuat orqanlarında və xəbər portallarında Azərbaycanda turizmin inkişafına böyük diqqət yetirildiyi vurğulanır. Bu günlərdə Daşkənd review.uz portalı Azərbaycanın turizm sənayesi haqqında geniş məqalə dərc olunub. Məqalədə qeyd olunur ki, 2025-ci ilə qədər Bakıdakı Heydər Əliyev Beynəlxalq Aeroportunun regionun ən böyük hava limanı olması istiqamətində güclü iş aparılır. Belə ki, hazırda aeroport Avropanın 49 hava limanından təyyarələr qəbul edirsə, 2025-ci ilə qədər bu rəqəmi 100-ə çatdırmaq niyyətindədir. Yazıda, həmçinin, o da bildirilib ki, 2020-ci ilə qədər Azərbaycanda açılacaq iş yerlərinin 4,5 mini turizm sahəsini əhatə edəcək. Həmçinin, materialda Azərbaycanda qış turizminin inkişaf etdirilməsi perspektivləri, dağ, kənd və səhiyyə turizminin daha da cəlbedici olması üçün görülən işlər haqqında da məlumat verilir.

Turizmin inkişafında təbliğat vasitəsi də turizmin inkişafına və genişlənməsinə təsir göstərən əsas amillərdəndir. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) gələn il 2018-ci ildə xaricdə təşkil olunan sərgilərdə Azərbaycanın turizm potensialı barədə də xarici şirkətlərə məlumatlar yayacaq. AZPROMO-nun tək məqsədi məhsullarımızın nümayişi deyil. Eyni zamanda, ölkəmizin tanıdılması və turizm potensialının xarici ölkələrin iş adamlarına çatdırılması da qarşıya qoyulan məqsədlərdəndir. Hazırda bununla əlaqədar olaraq Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi ilə danışıqlar aparılır. Gələn ildən xaricdə təşkil olunan sərgilərdə Azərbaycanın turizm potensialı və ölkənin tanıdılması ilə bağlı məlumatlar stendlərdə geniş kütləyə çatdırılacaq.

Bildiyimiz kimi, 2017-ci il Birləşmiş Millətlər Təşkilatı tərəfindən "Beynəlxalq inkişaf naminə davamlı turizm ili" elan olunub. "Beynəlxalq davamlı turizm ili"ndə Azərbaycanda çoxsaylı tədbirlər keçirilib. Mövcud turizm potensialından istifadə imkanlarının genişləndirilməsi istiqamətində regionlarda turizm fəaliyyətinin stimullaşdırılaraq yeni turizm marşrutları yaradılıb. 2017-ci ildə MDB məkanında, ilk dəfə olaraq, Azərbaycanda Bakı şəhərində yenilik edilərək, Bakı Şopinq Festivalı önəmli xarakter daşıyır. Məqsədyönlü tədbirlərin keçirilməsi nəticəsində turist sayında xeyli artım olmuş və eləcə də, əcnəbi turistlərin gəldikləri ölkələr sırasına yeni ölkələr daxil olunmuşdur.

Milli Turizm Təbliğat Bürosunun mətbuat katibi Kənan Quluzadənin sözlərinə görə, 2016-cı illə müqayisədə bu il artım tempi daha yüksək olub: "2016-cı ildə turistlərin sayında 12 faizə qədər artım olmuşdusa, bu il bu artım 20 faiz təşkil edib. Qarşıya qoyulan plana əsasən, 2020-ci ildə Azərbaycana gələn turistlərin sayı 4,5 milyon nəfər olmalıdır, lakin turistlərin sayında inkişaf tempinə əsasən, deyə bilərik ki, bu rəqəmə daha tez nail olunacaq. Azərbaycana gələn turistlərin coğrafiyasında da genişlənmə var və bütün istiqamətlərdən ölkəyə gələn turistlərin sayında artım müşahidə edilir".

Bu gün ölkəmiz özünün sosial-iqtisadi inkişafının yeni yüksəliş dövrünü yaşayır. Azərbaycanda güclü iqtisadi islahatlar düşünülmüş sosial siyasətlə tamamlanır. Əlverişli geosiyasi mövqeyə malik olan Azərbaycan özünün müstəqil iqtisadi siyasəti sayəsində dünyanın ən sabit və davamlı inkişaf edən dövlətinə çevrilmişdir. Son illərdə həyata keçirilən məqsədyönlü islahatlar, bir sıra ümummilli proqramlar, mühüm infrastruktur layihələrinin uğurla reallaşdırılması ölkəmizin sosial-iqtisadi mənzərəsini xeyli dərəcədə dəyişmiş, tarazlı inkişaf və davamlı yüksəliş üçün möhkəm əsas yaratmışdır.

Turizmin inkişafı Azərbaycanda xüsusi əhəmiyyət kəsb edir. Bu, bir tərəfdən iqtisadiyyatda alternativ sahələrin inkişafı, digər tərəfdən dövlət büdcəsi üçün yeni gəlir mənbələrinin açılması deməkdir. Ölkədə turizm sahəsinin inkişafı bir tərəfdən ölkənin iqtisadi tərəqqisinə, regionlarda kiçik şəhərlərin inkişafına, sosial infrastrukturun təkmilləşdirilməsinə, digər tərəfdən əhalinin rifah halının yüksəldilməsinə, ehtiyacı olan təbəqələrin müalicə və turizmin digər sosial xidmətlərilə bağlı tələbatlarının təmin edilməsinə yönəlir. Beləliklə, Azərbaycanda turizmin yeni sahələrindən olan sosial turizm yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bununla bağlı qeyd etdiyi kimi: "Azərbaycanın sosial siyasəti güclü iqtisadi bazaya əsaslanır. Biz iqtisadi sahədə əldə edilmiş nailiyyətləri insan kapitalına çeviririk". Bu sözlər yaxın gələcək və perspektivlər üçün Azərbaycan iqtisadiyyatının və milli turizmin inkişafının əsas hədəflərini müəyyən edir.

**ZÜMRÜD**



## Gələn il təhvil veriləcək xam pambığın alış qiymətləri artırılacaq

Gələn il təhvil veriləcək xam pambığın alış qiymətləri hər ton üçün 100-110 manat artırılacaq. Kənd Təsərrüfatı Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, pambıqçılıq məhsullarına tələbatın ödənilməsi, ixracının artırılması, emal müəssisələrinin xammal təminatının yaxşılaşdırılması, kənd yerlərində əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi üçün dövlət dəstəyinin gücləndirilməsi və bu sahənin inkişafının sürətləndirilməsi məqsədilə Azərbaycan Prezidentinin 2017-ci il 13 iyul tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı" təsdiqlənib.

Dövlət Proqramının Tədbirlər Planının icrasına uyğun olaraq, pambıqçılığın inkişaf etdirilməsi məqsədilə bu il dekabrın 1-də Kənd Təsərrüfatı Nazirliyində İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin rəhbərlərinin, pambıq istehsalı və emalı ilə məşğul olan "MKT İK" MMC və "CTS AQRO" MMC-nin nümayəndələrinin iştirakı ilə görüş keçirilib. Görüşdə cari ildə görülən işlər, pambıq yığımının gedişi, tədarükü və emalı vəziyyəti, eləcə də qarşıya qoyulan hədəflərə çatmaq üçün 2018-ci ildə həyata keçirilməsi vacib olan məsələlər müzakirə edilib.

## Vladimir Putin növbəti müddətə namizədliyini özü irəli sürəcək



Rusiya Prezidenti Vladimir Putinin növbəti müddətə namizədliyi "Vahid Rusiya" partiyası tərəfindən irəli sürülməyəcək. Dövlət başçısı seçkilərdə müstəqil namizəd kimi iştirak etmək qərarına gəlib. AZƏRTAC xəbər verir ki, Putin bu qərarını illik böyük mətbuat konfransında bəyan edib. Namizədliyin forması barədə "Kommersant" qəzetinin müxbirinin sualını cavablandıran Rusiya Prezidenti deyib ki, namizədliyini özü irəli sürəcək. "Mən, əlbəttə, ölkənin inkişafında mənim baxışlarımı bölüşən, mənə inanan siyasi qüvvələrin dəstəyinə çox güvənirəm, ümumilikdə isə vətəndaşların geniş dəstəyinə güvənirəm", - deyə Vladimir Putin əlavə edib. RF prezidenti mətbuat konfransının əvvəlində bildirib ki, onun seçkiqabağı proqramı, demək olar, yazılıb, amma indi onu açıqlamağın vaxtı deyil.

## Dövlət İmtahan Mərkəzi Direktorlar Şurasının sədri Sumqayıtda vətəndaşları qəbul edib



Dövlət İmtahan Mərkəzi (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə dekabrın 14-də Sumqayıt şəhərində vətəndaşları qəbul edib. Qəbulda Sumqayıt şəhərinin, Abşeron, Xızı rayonlarının sakinləri, eləcə də bu şəhər və rayonlarda məskunlaşmış Qubadlı, Zəngilan və Şuşadan olan məcburi köçkünlər iştirak ediblər. AZƏRTAC xəbər verir ki, görüşdən əvvəl Məleykə Abbaszadə və Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov şəhərin Heydər Əliyev Mərkəzinin qarşısında Ümummilli Liderin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Sonra Heydər Əliyev Mərkəzi ilə tanışlıq olub. Mərkəzin konfrans zalında keçirilən görüşdə DİM Direktorlar Şurasının sədrinə, əsasən, ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə və orta ixtisas təhsili müəssisələrinə qəbul üçün aparılan elektron ixtisas seçimi, ixtisas seçimi zaman diqqət yetirilməli olan məsələlər, dövlət qulluğuna qəbul və s. işlərlə əlaqədar müraciət edilib. DİM-in səlahiyyətlərinə aid olan bəzi məsələlər yerindəcə həll olunub. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb. Qeydiyyatdan keçənlərlə yanaşı, görüş zamanı birbaşa müraciət edən vətəndaşlar da M.Abbaszadə tərəfindən diqqətlə dinlənilib və onların müraciətlərinin həlli üçün müvafiq tədbirlər görülüb.

# Gündüz İsmayılov: Bəzi dini qruplar məqsədli şəkildə dini kimliyimizlə milli kimliyimizi qarşı-qarşıya qoyurlar

***Dekabrın 14-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Xaçmaz Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə keçirilən konfransda "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusu müzakirə olunub.***

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, tədbirdə ümumtəhsil məktəblərinin təlim-tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, şagirdlər, eləcə də rayonun fəal gəncləri iştirak ediblər. Xaçmaz Rayon İcra Hakimiyyəti başçısının müavini İlhamə Nəzərova rayondakı mövcud dini durum barədə ətraflı məlumat verib. Çıxışda "İslam Həmrəyliyi İli" çərçivəsində bölgədə həyata keçirilmiş tədbirlərin əhəmiyyətindən danışılıb. Bildirilib ki, müsəlman aləmində baş verən proseslər İslam həmrəyliyini zəruri edir.



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov Prezident İlham Əliyevin Sərəncamı ilə 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsinin İslam dünyasının həmrəyliyinə verilən böyük önəmin göstəricisi olduğunu bildirib. Qeyd edib ki, ölkəmizdəki tolerantlıq mühiti dünyaya nümunədir. Respublikamızda nə dini, nə də milli və irqi ayrı-seçkilik müşahidə edilir. Dövlət Komitəsi tərəfindən maarifləndirmə məqsədilə rayon və şəhərlərdə mütəmadi olaraq "dəyirmi masa"ların və konfransların keçirildiyini diqqətə çatdıran sədr müavini bildirib ki, bu tədbirlərin keçirilməsi dövlət-din münasibətlərinin, İslam həmrəyliyinin, ölkəmizin tolerantlıq ənənələrinin qorunması və daha da inkişaf etdirilməsi məqsədi daşıyır. İdeoloji müstəvidə din sahəsində mövcud olan problemlərdən biri də dini kimliyimizin milli kimliyimizə qarşı qoyulmasıdır. "Dini kimlik" dedikdə İslam, "milli kimlik" dedikdə isə azərbaycançılıq nəzərdə tutulur", - deyən sədr müavini təəssüflə vurğulayıb ki, bəzi dini qruplar məqsədli şəkildə dini kimliyimizlə milli kimliyimizi qarşı-qarşıya qoyurlar. Daha sonra Dövlət Komitəsinin maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov dini radikalizmin müasir dövrün ən böyük problemlərindən biri olduğunu bildirib. Onunla mübarizədə maarifçilik işinin təşkilinə xüsusi önəm verilməsinin vacibliyini diqqətə çatdırıb. Konfrans müzakirələrlə davam etdirilib.




## Muxtar respublikadakı soyuducu anbarlarda bol məhsul ehtiyatı yaradılıb

***Muxtar respublikada əhalinin tələbatının ödənilməsi, qiymətlərin tənzimlənməsi və idxaldan asılılığın azaldılması məqsədilə bu ildə də soyuducu anbarlara kifayət qədər məhsul tədarük edilib.***

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, bu il iyunun 28-dən dekabrın 11-dək muxtar respublikadakı soyuducu anbarlara kənd təsərrüfatı üzrə ixtisaslaşmış sahibkarlar tərəfindən istehsal edilmiş 4075,76 ton məhsul tədarük olunub. Bunun da 3079 tondan çoxunu kartof, 58 tondan çoxunu soğan, 40 tondan çoxunu ərik, 227 tondan çoxunu alma, 137 tondan çoxunu şaftalı, 9 tondan çoxunu kələm və digər məhsullar təşkil edir. Tədarük edilmiş meyvə-tərəvəz məhsullarından 2 min 298 tondan çoxu artıq satılıb. Soyuducu anbarların imkanlarından səmərəli istifadə etmək məqsədilə sahibkarlarla qarşılıqlı razılaşma yolu ilə onlar məhsul istehsalçılarına icarəyə də verilir. Hazırda soyuducu anbarlarda bu yolla 203 ton məhsul saxlanılmaqdadır. Qeyd edək ki, Sahibkarlığa Kömək Fondu vasitəsilə ayrılan güzəştli kreditlər və sahibkarların özlərinin şəxsi vəsaiti hesabına muxtar respublikada yaradılan anbarların ümumi sayı artıq 31-ə, onların ümumi tutumu isə 14 min 30 tona çatdırılıb.

## Dövlət Neft Fondunun 2018-ci il büdcəsinin layihəsi təsdiq olunub



Azərbaycan Respublikası Hesablama Palatasının Kollegiya iclasında Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2018-ci il büdcəsinin layihəsi müzakirə edilərək təsdiq olunub. Hesablama Palatasından AZƏRTAC-a bildiriblər ki, rəy "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununun 27.7-ci maddəsinə, "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununun 2-ci maddəsinə və "Azərbaycan Respublikasının Dövlət Neft Fondunun illik gəlir və xərclər proqramının (büdcəsinin) tərtibi və icrası Qaydaları"nın 4.1-ci bəndinə müvafiq olaraq hazırlanıb. Rəydə 2018-ci ildə fondun gəlir və xərcləri barədə ətraflı məlumat verilib.

İclasda, Azərbaycan Respublikası Hesablama Palatasının Strateji İnkişaf Planının (SİP) layihəsi geniş müzakirə edilərək təsdiq olunub. SİP 2018-2020-ci illəri əhatə etməklə 5 Strateji Məqsədin reallaşdırılmasına yönəldilib. Ali Audit Qurumlarının inkişaf üzrə Strateji Planına malik olması Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatı olan INTOSAI-ın qəbul etdiyi standartın (ISSAI 12) tələbi olduğu diqqətə çatdırılıb, nəzərdə tutulmuş məqsədlərin Hesablama Palatasının hazırladığı rəylərin və hesabatların təkmilləşdirilməsi, yeni audit metodlarının tətbiqi, normativ hüquqi bazanın genişləndirilməsi, potensialın gücləndirilməsi və maraqlı tərəfdaşlarla, o cümlədən beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsi istiqamətində formalaşdırıldığı qeyd edilib. Kollegiya iclasında, həmçinin Hesablama Palatasının 2018-ci il üzrə İş Planı təsdiq edilib.

## Ölkə üzrə pambıq qəbulu məntəqələrinə 201 min tondan çox məhsul təhvil verilib



Dekabrın 14-dək ölkə üzrə pambıq qəbulu məntəqələrinə 201 min 491 ton məhsul təhvil verilib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, ötən gün 612,88 ton pambıq tədarük edilib.

Məhsul yığımında Saatlı pambıqçıları öndədirlər. Onlar dekabrın 14-dək 25 min 533 ton pambıq təhvil veriblər. Ümumilikdə isə 10 min tondan çox pambıq tədarük edən rayonların sırasına Biləsuvar, Bərdə, Ağcabədi, Sabirabad, Beyləqan və İmişli rayonlarının pambıqçıları daxildir.

## Astara (İran) - Astara (Azərbaycan) dəmir yolu xətti dekabrın 25-də istismara veriləcək



Azərbaycan və İranın dəmir yolları sistemlərini birləşdirəcək Astara (İran) - Astara (Azərbaycan) dəmir yolu xətti dekabrın 25-də istismara veriləcək. AZƏRTAC xəbər verir ki, bu barədə məlumatı İran Dövlət Dəmir Yolları İdarəsinin beynəlxalq əlaqələr idarəsinin direktoru Abbas Nəzəri verib. O bildirib ki, tərəflər arasında gömrük qeydiyyatı, viza rejimi və İran Astarasında tikilən yük terminalından istifadə qaydaları haqqında da razılıq əldə olunub. Xatırladaq ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əsasını təşkil edən Qəzvin-Rəşt dəmir yolunun davamı olan Astara(İran)-Astara(Azərbaycan) dəmir yolu xətti İran ilə Rusiyanın dəmir yolları sistemlərini Azərbaycan vasitəsilə birləşdirəcək.



Təhmasib Novruzov

## Gecikən yazılar

*və ya zamanın tələbinə gecikmiş cavablar*

Çoxdandır qələmi yerə qoymuşdum. Yox, tənbəllik deyildi. Sadəcə, baxıb görürdüm ki, yazılanları oxuyan yoxdur. Olanda da, səni başa düşənlərin sayı artır. Sən yazırsan həmdən-həmə, oxuyan da şərh verir dəmdən-dəmə. Bu yerdə rəhmətlik Mirzə Cəlil (yəni böyük azərbaycanlı mütəfəkkir Cəlil Məmmədquluzadəni nəzərdə tuturam) yadıma düşdü. Deyərdi, sözünü o kəslərə de ki, sənə qulaq asır və içindəki mənanı anlayır! Mən də gördüm ki, mənim yazdıqlarımı bəzi-bəzi kasad düşüncəli adamlar istədikləri kimi yozub, öz səviyyələrində izah etməyə çalışırlar, qələmi yerə qoyub, Sabir demiş, "xatiri-qəmmailimi yazıya məşğul" etməyi lüzumsuz saydım. Amma yazarlar yaxşı bilir, hərdən elə olur ki, istəsən də, istəməsən də yazırsan, daha doğrusu, yazmaya bilmirsən. Hələ həyatının otuz ilini yazı-pozuya həsr etmiş düşüncə adamı üçün yazmaq istəyi gələndə, içində hansı təlatümlər olduğunu qələm sahibləri yaxşı bilir. Bəlkə yazacaqlarım çoxlarının xoşuna gəlməyəcək, çoxları dodaq büzəcək. Deyə bilmərəm, bəlkə bir-iki nəfərin də xoşuna gələcək. Amma nə olursa-olsun, yazmağa qərar verdim. Həm də "Molla Nəsrəddin" kimi, hər şeyi necə var, daha doğrusu, mənim anlamımda necədirsə elə, bəzəksiz-düzəksiz, sadə el dilində, elin anlayacağı formada.

El demişkən, yadıma uşaq vaxtımdan xatirələrimə hopmuş bir əhvalat düşdü. Məktəbli idim. Sinif yoldaşlarımla dərsdən çıxıb evə gəlirdik. Kəndimizin yaşlı sakini, əl zəhmətilə halal çörək qazanan (kolxozun su cuvarı, yəni suçusu idi) Şükür kişi əlində bel qrşımıza çıxdı. Bizi görüb əlindəki beli yerə dirədi və sapının ucunu sinəsinə dayayıb bizi səslədi:

- Ay cavanlar, - dedi - ayağınızı saxlayın, sizə deyəcəyim var.

Dayandıq. Şükür kişi gülümsər siması ilə bizi süzüb dedi:

-Ay cavanlar, mən bu gün fikirləşib, o qərara gəlmişəm ki, bu Lenin kopəyoğlu, doğrudan da, çox ağıllı adam olub.

Bir-birimizin üzünə baxdıq. Sovet hakimiyyətinin, Kommunist Partiyasının dünyaya meydan oxuduğu bir vaxtda kimin həddi idi ki, Leninin ya ağlına şübhə etsin, ya da ona köpəyoğlu desin? Qorxumuzdan səsimizi çıxarmadıq. Yenə sükutu Şükür kişi pozdu.

-İndi soruşun, niyə deyirəm bunu?

Biz yenə susduq.

-Hə... Səhər durub üzümü qırxırdım, yanları təmizləyib keçdim çənə hissəyə. Yalan olmasın, bir saat bu çənəmlə əlləşdim. Yekələndə, üzünüzü təraş eliyəndə, siz də görəssiniz ki, bu çənəni qırxmaq nə əziyyətli işdi. Yadıma Lenin düşdü. Başa düşdüm ki, kim nə deyir desin, o kişi ağıllı adam olub ki, çənəsini qırxmayıb... Hə, nəisə, yəqin acmısınız, gedin, nənələriniz indi yolunuzu gözləyir.

Belini qaldırıb, çiyninə qoydu və yoluna davam eləyib getdi.

O zaman uşaq idim, Şükür kişinin dediklərinə elə bir əhəmiyyət vermədim. Amma zaman keçdikcə, bu əhvalat məni düşündürməyə başladı. Yəni bu misalın bir fəlsəfəsi var. O da ibarətdi ondan ki, bütün dünyanın ən ağıllı adamlarından olan, üç yüz illik Romanovlar sülaləsini taxtdan salıb, yeni cəmiyyət quran, dünya ilə üz-üzə dayanıb, fəsəfəsini dünya proletariatının beyninə yerləşdirə bilən bir şəxsiyyətin ağlını dahilər, filosoflar, siyasi xadimlər nədə görür, Şükür kişi nədə!

Bu əhvalatı danışıb, vaxtınızı ona görə aldım ki, mənim də yazacaqlarıma hər kəs öz dünyagörüşü ilə yanaşacaq ki, bu da bəzi kimsələrə xoş, bəzilərinə naxoş olacaq. O da olacaq ki, oxuyub, bir az qımışıb, qəzeti qoyacaq bir kənara, məni görəndə, deyəcək ki, əla yazmısan, bəzilərini görəndə, məni söyəcək ki, həmin bəzilərin xoşuna gəlsin. Nə eləmək olar, biz beləyik, belə də qalacağıq. Robot deyilik ki, sökub-yığısınlar bizi. Odur ki, yazmaq lazımdır. Beşi anlamasa da, biri anlayar, ona da şükür!

Bir sözlə, gördüm ki, yazmaq zamanın tələbidir. Özü də gecikmiş tələbi. Zamanın tələbindən isə çıxmaq olmaz, onda zamanın verəcəyi mənəvi cəza çox ağır olur...

# Siyasi iradəni beynəlxalq təşkilatlar, həmsədr ölkələr nümayiş etdirməlidir

***ATƏT-ə üzv Ölkələrin Xarici İşlər Nazirləri Şurasının Vyanada keçirilən illik iclasında ABŞ və Rusiya rəsmiləri Dağlıq Qarabağ məsələsindən danışıblar. Rusiyanın xarici işlər naziri Sergey Lavrov çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına toxunaraq, Rusiyanın bu münaqişənin bütün tərəflər üçün qəbul olunan həllinin tapılmasına dəstək göstərəcəyini vurğulayıb və münaqişənin həlli ilə bağlı prinsiplərin Minsk Qrupunun həmsədr ölkələrinin dövlət başçıları tərəfindən elan olunduğunu diqqətə çatdırıb. Öz ölkəsi adından çıxış edən dövlət katibi Reks Tillerson isə bildirib ki, ABŞ Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində Minsk Qrupunun səylərini dəstəkləyir.***




Məsələ burasındadır ki, 25 ildir belə müzakirələr, bəyanatlar, vədlər gündəmdən düşmür, fikir səsləndirilir, ancaq bu səslənən fikirlərin, təkliflərin arxasında əməli iş dayanmır və siyasi iradə tələb olunur. Azərbaycan siyasi iradə də nümayiş etdirir, beynəlxalq hüquq normalarına da hörmətlə yanaşır. Bəs substantiv irəliləyişə nail olmaq üçün siyasi iradəni, əslində, daha çox kim nümayiş etdirməlidir? Həmsədr dövlətlər Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının üzvləridir, söz sahibidilər və dünyanın idarə olunmasında həlledici gücə, səsə və sözə malik olan dövlətlərdir. Siyasi iradə nümayiş etdirmək, verilən qərar və qətnamələrin icrasını tələb etmək, lazım gəldikdə, icrasız qalmış qərarlara görə sanksiyalar tətbiq etmək və müvafiq tədbirlər görmək iqtidarındadırlar. İstər beynəlxalq təşkilatlar, istərsə də həmsədr dövlətlərin məsələnin həlli ilə bağlı təklifləri irəli sürüb və yeni fikir mübadilələri aparmaqla münaqişənin həllinə maraqlı olduqlarını nümayiş etdirmələri qeyri-səmimi təsir bağışlayır. Çünki onlar, BMT-nin icrasız qalmış məlum dörd qətnaməsinin icrasını tələb etmək, işğalçı dövlətə qarşı sanksiyalar tətbiq etmək, cəza tədbirləri tətbiq etmək və sülhə məcbur etmək iqtidarında olduqları halda, səthi müzakirələrlə münaqişənin həllinə maraqlı olduqlarına kimisə inandırmağa çalışırlarsa, yanılırlar. Bəllidir ki, məsələyə nə Azərbaycanın mənafeləri baxımından, nə də beynəlxalq hüquq normaları çərçivəsində yanaşılmır. Cənubi Qafqazda bu dövlətlərin, xüsusilə Qərblə Rusiyanın maraqlarının toqquşmasına, mövqelərinin bir-birinə zidd olmasına baxmayaraq, əfsus ki, Qarabağ məsələsində mövqeləri eyniləşir, hər biri, öz növbəsində, Ermənistanı müdafiə edir, yaxud ən azından işğalçılara sərt reaksiya verilmir.

Azərbaycan öz müstəqilliyini elan edəndə, çoxları belə düşünürdü ki, öz neftini Rusiyaya deyil Qərbə nəql edən Bakı, Qarabağ məsələsində dünyanın böyük dövlətlərinin dəstəyini qazana və münaqişənin ölkənin ərazi bütövlüyü çərçivəsində həllinə nail ola biləcək. Bu, utopiya deyildi və bu təhlilləri aparmaq üçün arqumentlər kifayət qədər ciddi idi. Belə ki, ABŞ başda olmaqla, nüfuzlu Qərb dövlətləri enerji ehtiyatları ilə zəngin Xəzər bölgəsində mövqelərini möhkəmlənməyə çalışırdı. Bu məsələdə Azərbaycanın mövqeyi önəmli idi və qonşularının güclü təzyiqlərinə baxmayaraq, enerji ehtiyatlarının, alternativ marşrutlarla dünya bazarlarına çıxarılması üçün ciddi addımlar atılırdı. Məhz belə bir vaxtda Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi razılaşdırıldı. Lakin bölgədə daha da möhkəmlənmək üçün enerji layihələri ilə yanaşı, Dağlıq Qarabağ münaqişəsi kimi kifayət qədər geniş, bölgəni qarışdıra biləcək təhlükəli münaqişənin də həlli vacibdir.

Son 20 ildə Minsk Qrupu Dağlıq Qarabağ məsələsi ilə əlaqədar deklarativ çıxışlardan başqa, heç bir nailiyyətə imza atmayıb. Buna görə də, Mins Qrupu həm qınaq obyektinə çevrilməli, həm də, hesabat tələb olunmalıdır. Dağlıq Qarabağ münaqişəsinin həllində ATƏT-in Minsk Qrupu və həmsədr dövlətlər beynəlxalq vasitəçi kimi çıxış edərək, qan tökülməsinin qarşısını almaq niyyətində olduqlarını bildirirlərsə belə, bu, onlara Azərbaycanın ərazi bütövlüyünü və həmin torpaqlarda rəsmi Bakının suveren hüquqlarını pozmağa haqq qazandırmır.

Yaşadığımız dünyada qloballaşma anlayışı və qloballaşma prosesi getdikcə daha böyük əhəmiyyət kəsb etməkdədir. Proseslər Yer planetində vahid dövlətin yardılması, sərhədlərin aradan qaldırılması, hər bir fərdin imkanlarına xüsusi diqqət yetirilməsi mərhələsinə doğru inkişaf edir. Artıq xüsusi bir inamla, demək olar ki, dünyadakı supergüclərin siyasəti, əsasən, qloballaşma anlayışına tam formada uyğunlaşdırılmaqdadır. Erməni tərəfi qloballaşmanın mahiyyətini nəzərə alaraq, cəhd edir ki, imkan yarandığı qədər Qarabağ məsələsini mövcud situasiyada konservləşdirsin, bacardıqca atəşkəs rejimini saxlasın, danışıqların bir mərhələdən digər mərhələyə keçirilməsinə qətiyyən şərait yaratmasın, nəticəni istədiyi səmtə yönəldərək, Qarabağ məsələsinin qloballaşma prosesinin tərkib hissəsi kimi dəyərləndirilməsinə nail olsun.

Aydındır ki, biz də bu qloballaşma prosesindən kənarda qala bilməyəcəyik və heç bir siyasi qüvvə Qarabağ məsələsini qloballaşmanın təsirindən kənarda saxlaya bilməyəcək. Dünyada sərhədlər aradan qaldırıldıqdan sonra bizim Qarabağı qaytarmaq istəyimiz supergüclər və qloballaşmış dünyanın ictimaiyyəti tərəfindən qeyri-ciddi bir iddia kimi qarşılaya bilər. Bu mühüm səbəbə görə, indidən Qarabağ torpağı qaytarılmalıdır ki, qloballaşma reallaşanda Qarabağ torpağındakı müxtəlif resurslardan istifadə imtiyazları, əsasən Azərbaycana məxsus olsun. Nə qədər ki, Azərbaycan qloballaşmanın ciddi reallıqları ilə mütləq mənada rastlaşmayıb, mövcud olan imkanlar maksimum reallaşdırılmalı, dünyanın gələcək düzənində layiqli mövqe tutulmalıdır.

***İnam HACIYEV***

# Naxçıvanda on bir ayda 2131 ədəd smartkart tipli qaz sayğacı və mühafizə qutusu quraşdırılıb



"Naxçıvanqaz" İstehsalat Birliyi tərəfindən əhali qrupu üzrə təbii qaz istehlakçılarının müasir standartlara cavab verən texnologiyalardan istifadə etməsi məqsədilə ön ödənişli smartkart tipli qaz sayğaclarının quraşdırılması tədbirləri həyata keçirilir. Birliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, təbii qazın dayanaqlı olması üçün Naxçıvan şəhərində smartkart tipli qaz sayğaclarının quraşdırılmasına 2015-ci ilin yay aylarından başlanılıb. Türkiyə istehsalı olan sayğacların hər biri Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində dövlət qeydiyyatından keçirilir. 2015-ci ildə 7921, 2016-cı ildə 5731, 2017-ci ilin 11 ayı ərzində 2131 ədəd, ümumilikdə isə cari ilin noyabr ayının 1-nə qədər 15 min 783 ədəd smartkart tipli qaz sayğacı və mühafizə qutusu quraşdırılıb. Cari ilin dekabr ayı ərzində 300 ədəd smartkart tipli qaz sayğacının quraşdırılması nəzərdə tutulub.

# Hicran Hüseynova: "Müasir dövrdə ailələrin dağılmasının əsas səbəbi heç də maddi durum deyil"



Təhlillər göstərir ki, müasir dövrdə ailələrin dağılmasının əsas səbəbi heç də maddi durum deyil. Erkən və qeyri-rəsmi nikahlar, uşaqların qüsurla doğulması və ya uşağın olmaması ailələrdə boşanma hallarına gətirib çıxarır. AZƏRTAC xəbər verir ki, bunu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova 10 dekabr - Ümumdünya İnsan Hüquqları Gününə həsr edilmiş konfransda deyib. Onun sözlərinə görə, belə ailələrdə köməksiz qalan qadınların hüquqlarının müdafiəsi məsələni aktuallaşdırır. Hazırda dünyada ekstremizm, qarşıdurmalar ailə institutuna mənfi təsir göstərir, onu zəiflədir. Amma bununla belə, Azərbaycanda ailə institutu qorunub saxlanılır. Bu gün ailə institutuna təsir edən hallar var. Bəzi hallarda ailədə ünsiyyət problemləri, sosial-psixoloji mühitin gərginliyi, erkən və qeyri-rəsmi nikah, məişət zorakılığı, uşaqların təhsildən yayınması ailənin zəifləməsi və ya dağılması ilə nəticələnir.

# Azərbaycan əhalisinin sayı 9,9 milyon nəfərə çatır



Azərbaycan əhalisinin sayı ilin əvvəlindən 73 min 360 nəfər və ya 0,7 faiz artaraq 2017-ci il noyabr ayının 1-i vəziyyətinə 9 milyon 883 min 341 nəfərə çatıb. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, əhalinin 53 faizi şəhər, 47 faizi kənd sakinləridir, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Əhalinin bir kvadrat kilometrə düşən sıxlığı 114 nəfər olub. Hazırda hər 1000 kişiyə 1006 qadın düşür. Bu ilin 10 ayı ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 120 min 35 doğulan körpə qeydə alınıb və əhalinin hər 1000 nəfərinə bu göstərici 14,8 təşkil edib. Doğulan körpələrin 53,1 faizi oğlan, 46,9 faizi isə qız uşaqlarından ibarət olub. Körpələrdən 2 min 134-ü əkiz, 42-si üçəm doğulanlardır.

Cari ilin yanvar-oktyabr aylarında ölkədə 47 min 695 ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 5,9 təşkil edib. On ay ərzində qeydiyyat şöbələri tərəfindən 52 min 61 nikah və 12 min 191 boşanma halları qeydə alınıb və əhalinin hər 1000 nəfərinə nikahların sayı 6,4, boşanmaların sayı isə 1,5 olub. Yanvar-oktyabr ayları ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün 2 min 599 nəfər Azərbaycana gələn, 1579 nəfər isə Azərbaycandan gedən qeydə alınaraq, miqrasiya saldosu müsbət 1020 nəfər təşkil edib.

# Kaunas 2022-ci ildə Avropanın mədəniyyət paytaxtı seçilib



Litva hökuməti 2022-ci ildə Kaunasa "Avropanın mədəniyyət paytaxtı" adının verilməsi barədə Litva Mədəniyyət Nazirliyinin təklifini bəyənib və "Avropanın mədəniyyət paytaxtı - 2022" proqramının maliyyələşdirilməsini təsdiqləyib. Proqramın layihələrini maliyyələşdirmək məqsədi ilə Kaunas şəhər bələdiyyəsinə 10 milyon avrodan çox olmamaq şərti ilə məqsədli dotasiya ayrılacaq. "Avropanın mədəniyyət paytaxtı" adı hər il Avropa İttifaqının üzvü olan iki ölkənin hər birinin ancaq bir şəhərinə verilir. 2022-ci ildə bu adı şəhərlərindən birinə vermək hüququ Litvaya və Lüksemburqa verilib. Litva Mədəniyyət Nazirliyi Kaunasa üstünlük verib.

TƏRS BAXIŞ

# Cəmil Həsənli - Əli Kərimlinin ağır “yükü”



***Sirr deyil ki, AXCP sədri Əli Kərimli uzun müddətdir ki, “Milli Şura”nın rəhbəri Cəmil Həsənlini özündən kənarlaşdırmaq haqqında “baş sındırır”. Bu amil açıq şəkildə görünməsə də, deyilənlər faktlara əsaslanmaqdadır. Düzdür, C.Həsənli “belə bir şey yoxdur” deyərək, diqqəti yayındırmağa cəhdlər edir, ancaq bu gün onun bu cəhdinin uğursuz olması da bir faktdır.***

Son günlər Kərimlinin nəzarəti altında olan “Milli Şura”da baş verən qarşıdurmalar da, bunu deməyə əsas verir ki, qurumun sədri C.Həsənli Ə.Kərimli ilə müzakirələr aparmadan, onun rəyini öyrənmədən Avropada müxalifyönlü mühacirlər sayəsində “təşkilatlanma” işlərinə cəhd edir. Bu işdə də ona “Milli Şura”da qalan müsavatçı T.Yaqublu və “qiyamçı səfir” kimi tanınan A.Məmmədov yardım göstərir. Bu vasitə ilə mövqeyini möhkəmləndirməyə çalışan Həsənli, xüsusilə, “siyasi mühacirlərdən” yararlanmağa çalışır. Ümumiyyətlə, C.Həsənlinin zaman-zaman xarici ölkələrə səfərlər etməsinin də arxasında bu məqamın dayanması şübhəsizdir.

## Əli Kərimli Cəmil Həsənlinin istefasından dərhal sonra “Milli Şura”ya sədr keçməyi qətiləşdirib

Artıq C.Həsənli Ə.Kərimli üçün “ağır yük” rolunu oynamaqdadır. 2018-ci il seçkilərinə Həsənlisiz getməyə çalışan Ə.Kərimli hər vəchlə öz planlarını reallaşdırmağa çalışır.

Əbəs yerə deyil ki, zaman-zaman “Milli Şura”da C.Həsənlinin istefaya getməsi barədə tələblər səsləndirilir. Bu tələbləri isə ortaya atan, bilavasitə, Kərimli və onun yaxın çevrəsidir. Misal üçün, etibarlı mənbədən belə bir məlumat verilir ki, yaxın günlərdə Həsənlinin istefa qərarı mediaya açıqlanacaq. Həmçinin, mənbənin qeyd etdiyinə görə, “Milli Şura”nın qeyri-rəsmi sədrliyini Ə.Kərimli edir, C.Həsənli isə, sadəcə, Kərimlinin səhvlərini və müxtəlif ağırlıqlarını öz üzərinə götürür. Ona görə də, Ə.Kərimli C.Həsənlinin istefasından dərhal sonra “Milli Şura”ya sədr keçməyi qətiləşdirib.

Yeri gəlmişkən, daha bir faktı xatırlatmaq yerinə düşərdi ki, C.Həsənli-Ə.Kərimli qarşıdurması birinci dəfə baş verməyib. C.Həsənli illər öncə, AXCP-dən istefaya gedərkən, Kərimlinin bütün kartlarını açığa çıxarmışdı. İndi də C.Həsənli yaxşı başa düşür ki, Ə.Kərimli özünün cəsarət edə bilmədiyi ən pis işlərin hamısını ona gördürüb və bütün oyunlarında ondan maksimum şəkildə yararlanıb. Bu gün isə, C.Həsənli amili Ə.Kərimlini qane etmir.

Beləliklə, son günlər Ə.Kərimli-C.Həsənli cütlüyü arasında baş verənlər qarşıdurmaların davamı kimi qiymətləndirilə bilər. Söz yox ki, qarşıdurmalar növbəti prezident seçkiləri ərəfəsində şiddətlənəcək. Ən azından, C.Həsənlinin “Milli Şura”nın sədrliyindən getməsi növbəti istefalara yol açacaq. Nəzərə alsaq ki, bu gün Ə.Kərimliyə C.Həsənli ilə yanaşı, Gültəkin Hacıbəyli amili də ciddi maneçilik yaradıb. Bu zaman qurumda yeni və daha ağır çalxalanmaların baş verəcəyini deyə bilərik.

**R. RƏSULOV**

# Elman Fəttah niyə istefa verdi?

*Yaxud müsavatdaxili qarşıdurmalar növbəti istefaları reallaşdırır*

***Müsavat partiyasının başqan müavini Elman Fəttahın səs-küylü istefası, artıq bir daha sübut etdi ki, hazırda bu siyasi təşkilat daxilində mövcud olan çəkişmələr, bilavasitə başqan A.Hacılının avtoritar idarəçiliyinə etirazla bağlıdır. Daha dəqiq desək, bu gün partiyanın idarəçiliyində, formal olaraq, başqan A.Hacılı olsa da, onun sükanı sabiq başqan, “MSDM”-in sədri İ.Qəmbərin əlindədir.***



Bu baxımdan, vəzifəsindən istefa verən E.Fəttah da etiraf edib ki, onun istefasına partiyanın idarəçiliyində yaranan fikir ayrılıqları səbəb olub. Düzdür, o, yalnız vəzifəsindən istefa verdiyini və partiyada fəaliyyətini davam etdirəcəyini desə də, yaxın günlərdə, ümumiyyətlə, Müsavatı tərk edəcəyini proqnozlaşdırmaq olar. Çünki uzun illər partiya rəhbərliyində olan bir adamın öz postunu tərk etməsi, özü də rəhbərliklə aralarında münaqişənin olduğunu bildirməsi, həmin adamın partiyada qalmasına şərait yaratmır.

## Partiyada klanlaşma yaradan Hacılılar onları üstələyə biləcək hər kəsə qarşı çıxış edirlər

Digər tərəfdən, o da bəllidir ki, 2018-ci ildə keçiriləcək prezident seçkiləri ərəfəsində, E.Fəttahın istefası digər istefaları da qaçılmaz edəcək. Misal üçün, hazırda Müsavatda E.Fəttahın qruplaşması fəaliyyət göstərir və onların bu istefaya dəstək göstərmələri gec-tez özünü göstərəcək.

Onu da qeyd edək ki, bu gün partiyada klanlaşma yaradan Hacılılar onları üstələyə biləcək hər kəsə qarşı çıxış edirlər. Bu məsələdə onlara dəstəyi verən isə, məhz sabiq başqan İ.Qəmbərdir. Yeri gəlmişkən, müsavatdaxili iddialardan biri də budur ki, E.Fəttah partiyanın yeni nizamnaməsinin yaradılması təklifini irəli sürüb, ancaq onun təklifi rəhbərik tərəfindən rədd edilib. Məsələn, Müsavat daxilindəki mənbə bildirib ki, təklif edilən nizamnamədə həmsədrlik institutunun olması müddəası yer alıb. Ancaq nə İ.Qəmbər, nə də A.Hacılı bu təklifi qəbul etməməklə yanaşı, bənzər təşəbbüs irəli sürənlərə qarşı amansız davranacaqlarını bildiriblər.

## Baş verənlər, Müsavatın mövcud vəziyyətinin sübutudur və partiya növbəti dəfə parçalanma halından çıxa bilməyəcək

Bu səbəbdən, E.Fəttah yaxın günlərdə partiyadan da gedəcəyini bəyan edəcək. Çox güman ki, onun iki yolu qalır - ya Tural Abbaslının “Ağ Partiya”sına, ya da Qubad İbadoğlunun sədri olduğu “ADR” hərəkatına keçmək. Ancaq hər iki təşkilatın onu qəbul edib-etməyəcəkləri də sual altında qalır.

Beləliklə, E.Fəttahın istefasının müəyyən səbəbləri, bəlli olsa da, yaxın günlərdə digər məsələlərin də üzə çıxacağını gözləmək olar. Hər halda, baş verənlər, Müsavatın mövcud vəziyyətinin sübutudur və partiya növbəti dəfə parçalanma halından çıxa bilməyəcək.

**RÖVŞƏN**

# Pənah Hüseynin bədbinliyi müxalifəti hiddətləndirib

*AXP sədri düşərgə daxilində özünə xal toplamağa çalışsa da, planı baş tutmayıb*



***Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseynin bu və ya digər mövzularda anormal fikirlər səsləndirməsi nəticə etibarilə təmsil olunduğu ənənəvi müxalifət düşərgəsində birmənalı qarşılanmır. Hətta kəskin narazılıqlara da səbəb olur. Daha dəqiq desək, mətbuatın 2018-ci ildə keçirilməsi nəzərdə tutulan prezident seçkilərinə hazırlıqla bağlı sualları cavablandıran AXP sədrinin növbəti fikirləri, ilk növbədə, “Milli Şura”-AXCP cütlüyünün, eləcə də, müsavatçıların narazılığına səbəb olub. Məsələ ondadır ki, düşərgənin seçkilərə hazırlıqla bağlı sualı cavablandıran P.Hüseyn guya bu istiqamətdə “ciddi müzakirələr”in aparıldığını deyib. Ancaq onun bu sözləri öz təsdiqini tapmayıb.***

## Cəbhəçilər Pənah Hüseynə qarşı çıxış etdilər

Ənənəvi müxalifətin mövcud vəziyyəti düşərgədə heç bir siyasi qurumun digərinin təşəbbüsünə dəstək verməməsini açıq-aydın göstərir. Belə olan halda, AXP sədrinin ümumi olaraq müxalifət haqqında rəy bildirməsi, ilk öncə Əli Kərimlinin nəzarətində olan “Milli Şura” və AXCP-nin etirazına səbəb olub. Misal üçün, Ə.Kərimlinin sosial şəbəkədəki tərəfdarları müzakirələrin, bütövlükdə müxalifət ilə deyil, məhz “Milli Şura” daxilində aparıla biləcəyini deyərək, P.Hüseynə qarşı fikirlər yazıblar.

Maraqlıdır ki, açıqlamasında özünə xal toplamağa çalışan P.Hüseyn düşərgədəki digər siyasi qurumların rəğbətni qazanmaq üçün “müxalifətin indiki vəziyyətdə fəallıq göstərməməsi kimi fikirlərə də razı deyiləm” tipli ifadə işlədib.

Hətta iddia edib ki, guya müxalifət onun gözlədiyindən də artıq (?!) fəallıq göstərirmiş...

Ancaq fakt budur ki, müxalifətin “fəallığı” yalnız sosial şəbəkələrdə ola bilər və bu “fəallıq” yalnız kimlərinsə ucuz tərifinə hesablanır. Yəni bütövlükdə, “seçki fəallığı” deyilən iddia, ümumiyyətlə, yoxdur.

## Müsavatçılar da AXP sədrini çıxdaş edib

P.Hüseyn Müsavat partiyasına da “yarınmağa” çalışaraq, guya bu partiyanın sosial şəbəkədəki fəaliyyətini, daha dəqiq desək, məişət söhbətlərini “ciddi müzakirə” adlandırıb. Ancaq maraqlıdır ki, müsavatçılar da P.Hüseynə öz partiyasına aid olmayan məsələlərə qarışmamasını tövsiyə ediblər. Bu amil isə, AXP sədrinin siyasi gündəmdə qalmaq planlarını alt-üst edib. Hətta onun açıqlamalarını bədbinlik kimi qiymətləndirənlər də olub. Bununla, P.Hüseynin planı reallaşmayıb və üstəlik, onun fikirləri məsxərəyə qoyulub.

**R.NURƏDDİNOĞLU**

# İçərisində külli miqdarda pul olan seyfi oğurlayanlar tutulublar

***Daxili işlər orqanlarının əməkdaşları mülkiyyət əleyhinə cinayətlərlə mübarizə sahəsində növbəti uğurlu əməliyyat tədbiri keçiriblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dekabrın 13-də Bakı şəhər sakini İlqar Həziyev Xəzər Rayon Polis İdarəsi 2-ci polis bölməsinə məlumat verərək Albalılıq yeni yaşayış sahəsində yerləşən fərdi yaşayış evinin dəmir barmaqlıqlarının qırıldığını və mənzildən içərisində 100 min manat olan seyfin oğurlandığını bildirib.***



Bakı Şəhər Baş Polis İdarəsi və Xəzər Rayon Polis İdarəsi əməkdaşları tərəfindən isti izlərlə və peşəkarlıqla keçirilən istintaq-əməliyyat tədbirləri nəticəsində qeyd edilən cinayətin Xəzər rayon sakinləri Bayram Əsgərov və Heydərəli Hacıyev tərəfindən törədildiyi müəyyən edilib. Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində həmin şəxslər saxlanılaraq istintaqa təhvil veriliblər. Qeyd edək ki, cinayəti törətməkdə şübhəli bilinən şəxslərin üzərlərindən və yaşadıqları evlərdən oğurladıqları pullar aşkarlanaraq maddi sübut kimi götürülüb. Faktla bağlı Xəzər Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, zəruri istintaq hərəkətləri, eləcə də təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# Azərbaycan adət-ənənələri: gəlinköçürmə...

***Gəlinin atası evindən çıxması və ər evinə qədəm qoyması zamanı ayrı-ayrı bölgələrdə müxtəlif adət və ayinlər icra olunurdu. Adətən, gəlin gətirməyə gedənlər qız evindən bir şey oğurlamağa çalışardılar. Qızın anası isə buna yol verməmək üçün gəlinin qurşağına bir çörək bağlayar və ya qoltuğuna bir çörək verər və bununla bildirərdi ki, qızını çörəklə yola salır. Qız evindən gəlinlə birlikdə çörək aparıldığına görə oğurluq etmək olmazdı. Bu, duz-çörəyə hörmətsizlik sayılardı.***

Qəzənfər Rəcəbli yazır: "Ata evindən çıxmasına yaxın gəlin al duvaq altında otağın ortasında "bəxt güzgüsü" ilə üzbəüz durardı. Gəlini aparmağa gələnlər onun üzünü görməməli idilər. Gəlinin duvağını yalnız ər evində gərdəkdə bəy oğlan qaldırmalı idi. Qızın atası və belini bağlayan qaynı qollarından tutub, onu çırağın ətrafında üç dəfə dolandırardılar. Gəlin otaqdan çıxanda, qapı ağzında döşəməyə üzüqoylu atılmış şüşə və ya saxsı boşqabı sındırıb, keçməli idi ki, ər evinə "bədbəxtlik" aparmasın. Gəlini qapıdan çıxararkən, müqəddəs "Quran"ın altından keçirərdilər. Qapının astanasında atası və əmisi, yaxud dayısı onu dayandırardı. Oğlan adamı burada kəbin kağızını saxlamaq üçün qızın anasına təqdim etməli idi. El adətinə görə, oğlan adamı kəbin kağızı ilə birlikdə qızın anasına "süd pulu" adlanan müəyyən məbləğ "halallıq" pulu da verməli idi.

Şəhər yerlərində gəlini faytonla aparardılar. Faytona əvvəlcə qızın yengəsi oturardı. Onun əlində içərisi şirniyyatla dolu bağlama olardı. Sonra gəlin qızın atası və əmisi onu faytona mindirərdilər. Onun dalınca isə oğlan yengəsi faytona minərdi. O, əlində yanan çırağı tutardı. Faytonçunun yanında oturmuş oğlan uşağının əlində gəlinin "bəxt güzgüsü" olardı. Gəlini aparan fayton yavaş getməli idi ki, piyadalar onunla ayaqlaşa bilsinlər. Gəlin karvanını əllərində məşəllər tutmuş cavanlar müşayiət edərdilər".

Kənd yerlərində gəlini at arabası, yaxud da at ilə aparardılar. Görünür, el arasında gəlinin ər evinə köçməsi üçün işlədilən "gəlin atlanması" ifadəsi də gəlinin atla aparılması ilə əlaqədar deyilmişdir.

Akademik Teymur Bünyadovun "Dedim ki, yadigar qalsın" kitabında ailə haqqında aşağıdakı müdrik sözlər deyilir:

* Adət-ənənəni unudan, anasını da unudar.
* Ağayanalıq kişinin yaraşığıdı.
* Ağacın kökünü kəsən öz kökünü kəsər.
* Ağıllı oğul ataya dostdu, qardaşdı.
* Ağılsız adam hədyan danışar.
* Ailəsiz həyat heçdi-puçdu.
* Ailəsi möhkəm olan alınmaz qaladı, basılmaz eldi.

Gəlin araba ilə aparıldıqda, yengələr onun yanında oturar və çörək bağlamasını, çırağı və "bəxt güzgüsü"nü əllərində tutardılar. Gəlin arabasını, bir qayda olaraq, qızın qardaşı sürərdi. Gəlin at ilə aparıldıqda isə, yengələr başqa ata mindirilərdilər. Gəlin aparmaq üçün nəzərdə tutulmuş at qırmızı rəngli parça ilə bəzədilər və bəyin evinə qədər yedəkdə aparılardı. Gəlin atla aparılan zaman iki gənc yol boyu sağ və sol üzəngiləri tutub onu müşayiət edərdilər. Zəngəzur bölgəsində isə gəlinin ardınca gəlmiş bəy oğlanın sağdışı gəlini ata mindirib öz arxasında oturdar, soldış isə atın cilovunu tutardı. Aran bölgələrində gəlini keçmişdə iki hürgüclü dəvə ilə də apardılar. Bu məqsədlə bəzədilmiş dəvənin üstündə kəcavə qurular, kəcavənin ətəklərindən zınqırov asılardı. Gəlin aparan karvanın önündə at belində boy oğlanın böyük qardaşı (yaxud atası, əmisi və ya dayısı) gedərdi və gəlin axşam aparıldığına görə karvanı əllərində məşəl tutan cavanlar müşayiət edərdilər. Gəlin karvanının qabağını yol boyu cavanlar və uşaqlar ip (sicim) ilə kəsərdilər. Oğlan adamı o saat onlara xələt və ya pul verib yolu açdırardı. Bu minvalla gəlin gətirən karvan bəy oğlanın evinə gəlib çatardı.

Q.Rəcəblinin fikrincə, gəlin faytondan və ya atdan düşürülüb, bəy evinə yaxınlaşanda, eyvanda durmuş bəyin anası və ya bacısı onun başına noğul, konfet və xırda metal pul səpərdi. Uşaqlar isə həmin şeyləri yerdən yığıb sevinərdilər. Çox vaxt gəlin həyətə girəndə, ayağı altında qoç da kəsərdilər. Bəzi bölgələrdə gəlin evin qapısına yaxınlaşan zaman ayaqları altına maşa, şiş, nal və s. dəmir əşya atardılar ki, ər evində onun yeri dəmir kimi möhkəm olsun. Gəlindən öncə, evə onun çırağı, bəxt güzgüsü və çörək bağlaması aparılardı.

Gəlin otağa daxil olduqdan sonra qız və gəlinlər onu dövrəyə alıb, "xoş gəldin", - deyərək qucaqlayıb öpər və otağın yuxarı başında divar boyu döşənmiş döşəkçələrin yanına apararaq, bir müddət ayaq üstə saxlardılar. Adətə görə, qayınata və ya qayınana gəlib, gəlinə "dızdayağı" olaraq qiymətli hədiyyə vəd etməli və oturmasına icazə verməli idi. Gəlin döşəkcə üstə oturduqdan sonra qucağına 3-5 yaşında bir oğlan uşağı otuzdurub "oğullu-qızlı olsun", - deyərdilər.

Bəy toyun əvvəlki günlərində mağarda oturmazdı. O, başqa evdə (əmisigildə, dayısıgildə, sağdışıgildə və ya qonşuda) yoldaşları ilə birlikdə kiçik bir məclis qurar, yeyib-içər, əylənərdi. Bəyin məclisini idarə etmək üçün bir nəfər "xan" seçərdilər. "Xan" böyük səlahiyyətə malik idi və bəydən başqa, məclisin bütün iştirakçılarını cərimə edə bilərdi. Toyun sonuncu axşamı gəlin gətirildikdən sonra isə bəy musiqi sədaları altında mağara gətirilər, toy şənliyi daha da canlanardı. Bəy mağarın yuxarı başında xüsusi düzəldilmiş yerdə öz sağdış və soldışı ilə birlikdə oturardı.

Q.Rəcəbli yazır: "Toyun sonunda bəy tərifi olardı. Bəy tərifi adəti Azərbaycanın müxtəlif bölgələrində "bəy durma", "bəy oturma" və "bəy başı" da adlanmışdı. Bu zaman bəy oğlan öz sağdış və soldışı ilə birlikdə mağarın ortasında qoyulmuş masanın arxasında oturur və ya ayaq üstə dururdu. El aşığı və ya xanəndə bəyin şəninə təriflər deyər, onun ata və anasından başlayaraq, bütün yaxın qohumlarını, dost-tanışlarını bəyə xələt verməyə dəvət edərdi. Bəyə xələt verənlərin çoxu sağdış və soldışa da xələt verirdi. Bəyin xalaları, bibiləri və digər yaxın qohumları olan qadınlar xonçalarla təbrikə gəlir və bəyin, sağdış və soldışın boynuna qiymətli parçalardan xələtlər salırdılar. Bəy tərifindən sonra bəy oğlanın anası, bacı-qardaşı və bütün qohum-əqrəbası onun başına toplaşaraq bir qədər oynadıqdan sonra təbrik edib dağılışardılar. Bəy oğlanın sağdış və soldışı isə onu mağardan çıxarıb gərdək, otağına qədər ötürərdilər. Toyun bu sonuncu gecəsi "zifaf gecəsi" adlanırdı.

Zifaf gecəsinin səhərisi günü bəy evdən çıxıb sağdışıgilə gedərdi və yoldaşları onun başına toplaşardılar. El adətinə görə, həmin gün cavan uşaqlar məhəllənin həyətlərinə girib toyuq tutardılar. Bəyin şərəfinə üç gün məclis qurulardı. Yalnız axşamlar yoldaşları bəyi gətirib evə ötürərdilər.

Gəlin isə üç gün gərdəkdə qalardı. Zifaf gecəsinin səhərisi günü gəlinin anası quymaq bişirər, üstünə darçın və bal töküb yengə ilə bəyin evinə göndərərdi. Günorta və axşam yeməklərini isə gəlinin qayınanası hazırlayıb kiçik qızlarından biri ilə göndərərdi, evdə kiçik qız uşağı olmayanda, qayınana özü qapını döyüb açar və xörəyi qapı arasından otağa qoyardı".

Gərdəkdə oturmanın üçüncü günü "üzə çıxdı" mərasimi olurdu. Bu el adəti çox yerdə "üç gün" adlanırdı. "Üç gün"də oğlanın anası xörək hazırlayar və yaxın qohum və qonşu qadınları "gəlin gördü"yə dəvət edərdi. Qonaqlar toplaşdıqdan sonra qayınana gəlini çağırtdırardı. Yengə təzə gəlini geyindirib, qonaqların üzünə çıxarardı. Gəlin hamıya salam verib, bir tərəfdə ayaq üstə dayanardı. Quba şəhərində təzə gəlin yengəsi ilə bərabər gəlib qonaqlara salam verdikdən sonra əlindəki gülabdandan qayınanasının, sonra isə başqalarının əlinə gülab tökmə adəti də var idi. Qonaqlar gəlinə "Xoş qədəm olasan, ayağın düşərli olsun, ulduzlarınız barışsın", - deyərdilər. Sonra qayınanası gəlinə yer göstərib, onu oturdardı. Gəlini görməyə gələnlər, ona hədiyyə verərdi. Azərbaycanın bəzi bölgələrində (Yardımlı rayonu ərazisində) gəlin yeddi gün gərdəkdə qalmalı idi və yalnız səkkizinci gün yengəsi onu "üzə çıxdı" mərasiminə aparırdı.

"Üzə çıxdı"nın səhərisi gün gəlin aftafa-ləyəni götürüb qayınata, qayınana və qayınlarının əlinə su tökməklə yeni ailəsinin həyatına qoşulardı. Gəlin ərinin valideynlərinə "qayınata" deyil, adətən, ərinin dililə "ata" və "ana", qayınlarına və baldızlarına isə, "qardaş" və "bacı" ifadəsi əlavə etməklə, adları ilə müraciət edərdi.

Gəlin qırx gün öz həyətlərindən bayıra və camaat arasına çıxmazdı, hətta atasıgilə də gedə bilməzdi. Bu müddətdə onun "çillə"yə düşməsindən ehtiyat edərdilər. Qırx gündən sonra baldızı və ya qayınanası gəlini camaat arasına çıxarar, özləri ilə bulaq başına aparardılar. Glinin ata-anası da qızlarını yalnız qırx gündən sonra qonaq çağırardı. Gəlinin atası evinə qonaq çağırması "ayaq açdı" adlanırdı. "Ayaq açdı" vaxtı gəlinin atası qızına xalça, sağmal heyvan və b. qiymətli bir hədiyyə verərdi. Bəzi ailələr kürəkənlərinə, hətta at da bağışlayardılar. Odur ki, gəlin köçmüş qızın atası evinə "ayaq açdı" mərasimi həm də "kürəkən görümcəyi" adlanırdı. Qayınata və qayınana üçün "kürəkən" olan qızın əri, qayın və baldızlar, habelə, digər qohumlar üçün "yeznə" adlanırdı. Azərbaycanın Şirvan, Gəncə, Qazax, Borçalı və Göyçə bölgələrində qızın əri üçün "kürəkən" sözünün əvəzinə, "göy" sözü işlədilirdi. "Kitabi-Dədə Qorqud"da "kürəkən" və "yeznə" mənasında "göykü" sözü işlədilmişdir. Ehtimal ki, Azərbaycanın bir çox bölgələrində müasir dövrdə də "kürəkən" mənasında işlədilən "göy" sözü zəmanəmizədək gəlib çıxan qədim Oğuz "göykü" sözünün qısaldılmış formasıdır.

T.Bünyadov ailə həyatı və həyat yoldaşını yksək dəyərləndirərək yazır:

* Arvaddan yarımayan, övladdan çətin yarıyar.
* Arvadını itirən kişi, yetimdən də betərdi.
* Arvadağızdan nə kişi?
* Arvad tikən evi, fələk də yıxa bilməz.
* Arvad yıxan ev çətin qurular.
* Atalı-analı ürəkli olar.
* Ataya ata demək asan, oğul olmaq çətin.

Bundan başqa T.Bünyadov ailə müqəddəsliyi və ana müqəddəsliyi haqqında dəyərli sözlər deyibdir:

* Ana oğul çiynində getsə, cənnətlik olar.
* Ana laylası ana dünyasıdı.
* Ana da müqəddəsdi, ailə də müqəddəs.
* Ana dilini bilməyən, ana laylasını da bilməz.
* Ana səni dünyaya gətirib, indi sən ona dünyanı göstər.
*Ana südü əmməyən anasının, ata öyüdü görməyən atasının qədrini bilməz.
* Ana da candan əziz, bala da candan əziz.
* Ana da birdi, vətən də bir.
*Ana dünyadı, balası dünya qədər.
*Anasına baxan, balasına da baxar.
* Analığın yaxşısı da ələ düşməz, yamanı da
*Ananı əzizləyən behiştlikdi.
*Ana itirən balanın dərdi sağalmaz.
*Ananı balasından ayıran cəhənnəm odunda yanar.
* Anaya həsrət vətənə həsrətdi.
* Anaya məhəbbət vətənə məhəbbətdi.
* Anasına qayıdanı Tanrı lənətlər.
* Anasını itirən quzu ağciyər olar.
* Anasız qalanın ana, balasız qalanın bala dərdi dözülməz.

**Vahid ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 15 dekabr


## Yaponiyada pilotsuz avtobusun adi yolda sınaqlarına başlanıb

Yaponiyanın Hönşü adasının mərkəzi hissəsində yerləşən Kota şəhərində ilk dəfə olaraq pilotsuz avtobusun adi yolda sınaqlarına başlanıb. AZƏRTAC Kyodo agentliyinə istinadən xəbər verir ki, sınaqların keçirilməsi üçün digər avtomobillərin də hərəkət etdiyi 700 metr uzunluğunda yol sahəsi seçilib.

Kamera və radarlarla təchiz edilən pilotsuz avtobus yoldakı vəziyyəti təhlil edir, yol hərəkəti nişanlarını, digər avtomobillərin və piyadaların hərəkətini nəzərə alır. İlk mərhələdə ona saatda 15 kilometr sürətlə hərəkət etməyə icazə verilib. Avtobusun hərəkətini məsafədən izləyən operator fövqəladə vəziyyət yaranacağı təqdirdə onu dayandıra bilər. Avtobus gələcəkdə pilotsuz taksilər parkı yaratmağı planlaşdıran şirkət tərəfindən hazırlanıb.

Gələn ilin martında bu sınaqların hərəkətin daha çox olduğu Aiçi prefekturasının Naqoya şəhərinin küçələrində aparılması nəzərdə tutulur. Yaponiya hökuməti cari maliyyə ilində pilotsuz idarə edilən texnologiyaların və ekoloji cəhətdən təmiz maşınların inkişafı üçün 2,85 trilyon yen (təqribən 25 milyard avro) vəsait ayırıb. Hesablamalara görə, 2030-cu ildə Yaponiya yollarında hərəkət edəcək hər beş maşından biri sürücüsüz olacaq.

## Alimlər kefirlə yeyilməsi məsləhət olmayan qidaları araşdırıblar

Rus alimləri, diyetoloqlar və düzgün qidalanma üzrə mütəxəssislərin apardıqları birgə araşdırmalardan kefirlə bərabər istifadə olunan bəzi qidaların sağlamlıq üçün təhlükəli ola biləcəyi bəlli olub. AZƏRTAC "Beta info" saytına istinadla xəbər verir ki, burada əsas məsələ turş süd məhsullarının digər qidalarla birgə düzgün istifadə olunmadığı təqdirdə bağırsaqlarda yaranabiləcək bir sıra problemlərdir. Diyetoloqlar kəsmik, kefir, qatıq, yoqurt və digər bu kimi süd məhsullarını bir sıra digər qidalarla qarışdırmağı məsləhət görmürlər.

Misal üçün alimlər xiyar, üzüm, göbələk, tropik meyvə olan manqonun kefirlə istifadəsini düzgün hesab etmirlər. Belə ki, bu ərzaqların adigedən süd məhsulu ilə birgə istifadəsi mədədə həzm prosesini pozur. Bununla yanaşı moruq, qarağat və armudun da kefirlə yeyilməsi məsləhət deyil. Bunların əksinə olaraq turş süd məhsullarının darçınla istifadəsi məsləhət görülür ki, bu da həzm prosesini yaxşılaşdırır.

## Uşaqlarda dırnaq yemə vərdişi

Ömründə bir dəfə də olsun dırnaqlarının "dadına" baxmayan uşaq çətin tapılar. Dırnaqlar təbii və süniliyindən asılı olmayaraq içində gizlətdiyi bir çox mikroblara görə təhlükə mənbəyi sayılır. Kiçik yaşlı uşaqlar üçün həmin təhlükə daha yüksək olur, çünki daim əli ağzında olan uşaq çox mikrob udur. Paytaxtdakı 20 nömrəli uşaq poliklinikasının həkim-pediatrı Hafizə Məmmədova bu barədə AZƏRTAC-ın müxbirinə deyib:" Dırnaq yemək vərdişinin 3-4 yaşından tez başlamadığı müəyyən olunub. Bəzi valideynlər uşaqlarda dırnaq yemə vərdişinə o qədər əhəmiyyət verməsələr də, əslində bu, çox ciddi problemdir. Həmin problem nadir hallarda 1 yaşı tamam olmayan uşaqlarda müşahidə olunur. Uşaqların böyük bir qismi dırnaq yeməyə meyilli olur və həmin vərdiş onlarda yetkinlik yaşına qədər davam edir. Yetkinlik yaşında həmin vərdiş azalmaq əvəzinə daha da artmağa başlayır. Onun səbəbini aşkar etmək vacibdir. Birincisi, uşaqlar ətrafdakıların qınağına tuş gəlmir. Zaman keçdikcə ictimai qınaqla üzləşəndə həmin vərdişdən əl çəkirlər. İkincisi, uşaqlar böyükləri təkrarlamağa meyilli olurlar. Böyüklərdə həmin əlamət müşahidə ediləndə istər-istəməz uşaq da ona maraq göstərir və pis vərdişin təməli qoyulur.

Uşaqlarda dırnaq yeməyi tərgitməyin bir yolu onu görməzliyə vurmaq, bir müddət ona fikir verməməkdir. Uşaq yenə də dırnağını yeməkdə davam etsə, ona səbəb olan halları öyrənmək lazımdır. Uşağı bu vərdişinə görə danlamaq, qorxutmaq və ağlatmaq yolverilməzdir.

Uşaqların qorxu və qayğı yaradacaq vəziyyətlərdən uzaq olmaları məsləhətdir. Kiçik yaşlı uşaqların vahiməli və qorxulu filmləri izləməsi, dava-dalaşlı hadisələrdə iştirakı onlarda həyəcan yaratdığına görə təhlükəlidir və həmin həyəcan dırnaq yeməyə səbəb olur.

## DTF-nin yeni reytinq cədvəli taekvondoçularımız üçün uğurlu olub



Dünya Taekvondo Federasiyasının Olimpiya çəkiləri üzrə yeni reytinq cədvəli Azərbaycan idmançıları üçün uğurlu olub. SİA xəbər verir ki, dekabr üçün tərtib olunan siyahıda yığmamızın üç taekvondoçusu yer alıb. Hesabında 435,66 xal olan "Rio-2016" Yay Olimpiya Oyunlarının qalibi, dünya və Avropa çempionumuz Radik İsayev 80 kiloqramdan yuxarı çəki dərəcəsində yenə də birinci pillədədir. Dünya çempionumuz Milad Beiqi Harçeqani (80 kq) 469,86 xalla reytinq cədvəlində birinci yerdə qərarlaşıb.

Altmış səkkiz kiloqram çəki dərəcəsində "Bakı-2015"in və İslamiadanın çempionu olan Ayxan Tağızadə 207,15 xalla yeddinci pillədə yer alıb. Qeyd edək ki, reytinq xalları Dünya Taekvondo Federasiyasının təşkil etdiyi yarışlarda idmançıların aktivinə yığılan xallara əsasən verilir. Taekvondo qaydalarına görə 2020-ci ildə Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarınadək reytinq xalları sayəsində cədvəldə ilk altılıqda olacaq idmançılar Olimpiadaya birbaşa vəsiqə qazanacaqlar.

## Almaniya millisi dünya çempionu olarsa hər futbolçu 350 min avro mükafat alacaq



Futbol üzrə Almaniya milli komandası gələn il Rusiyada keçiriləcək dünya çempionatının qalibi olacağı təqdirdə yığmanın hər bir üzvü 350 min avro məbləğində mükafat alacaq. Bu barədə Almaniya Futbol Federasiyası açıqlama yayıb. Açıqlamada 2012-ci və 2016-cı illər Avropa, 2014-cü il dünya çempionatlarındakı kimi, mükafatın məbləğinin millinin mundialda necə çıxış etməsindən asılı olacağı vurğulanıb. Belə ki, komanda dörddəbir finala vəsiqə qazansa hər futbolçuya 75 min, yarımfinal üçün 125 min, final üçün isə 200 min avro məbləğində mükafat nəzərdə tutulub. Əgər Almaniya yığması üçüncü yeri tutarsa futbolçulara 150 min avro məbləğində mükafat veriləcək. Beləliklə, Almanya milli komandası dünya çempionu adını qazanarsa hər futbolçu ümumilikdə 350 min avro məbləğində mükafata sahib olacaq.



## Frank Riberi "Bavariya"nın heyətində rekorda imza atıb

Bundesliqa çərçivəsində "Köln" ilə oyun "Bavariya" futbol klubunun yarımmüdafiəçisi Frank Riberi üçün əlamətdar olub. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, bu görüş 34 yaşlı fransalı futbolçunun Münxen təmsilçisinin heyətində 366-cı oyun olub. Riberi bu göstərici ilə legionerlər arasında rekorda imza atıb. Daha əvvəl rekord Hasan Salihamiciçə məxsus idi. Futbolçu Almaniya klubunun heyətində 365 oyunda meydana çıxıb.

## Obameyanq qış transfer pəncərəsində "Borussiya"nı tərk etməyəcək



"Borussiya" futbol klubunun hücumçusu Pyer-Emerik Obameyanq qış transfer pəncərəsində komandanı tərk etməyəcək. Xarici KİV-lərin məlumatında deyilir ki, klub rəhbərliyi futbolçunu gələn ilin yayınadək heyətində saxlamaq istəyir. Həmçinin Obemeyanqın mövsümün ikinci hissəsində "Borussiya"nın ölkə çempionatında UEFA Çempionlar Liqasına vəsiqə qazanması uğrunda mübarizədə kömək etməsinin vacibliyi vurğulanıb. Almaniya təmsilçisi hücum xəttinin gücləndirilməsi istiqamətində mühüm addımlar atmağı planlaşdırır. Belə ki, qış transfer pəncərəsində "Borussiya" komandası "Arsenal"ın hücumçusu Olivye Jirunu heyətinə qatacaq. Qeyd edək ki, Almaniya klubu yayda 70 milyon avro müqabilində Obameyanqın transferinə razılıq verəcək.

## "Mançester Siti" klubu İngiltərə çempionatında yeni rekord müəyyənləşdirib

"Mançester Siti" klubu futbol üzrə İngiltərə çempionatının 17-ci turu çərçivəsində "Suonsi"ni 4:0 hesabı ilə məğlub edib. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, Mançester təmsilçisi İngiltərə çempionatında ardıcıl 15 qələbə qazanmaqla rekord müəyyənləşdirib. Daha əvvəl "Arsenal" 2002-ci ildə ardıcıl 14 oyunda meydandan qalib ayrılıb. Qeyd edək ki, "Mançester Siti" cari mövsümdə bütün turnirlərdə keçirdiyi 25 rəsmi oyundan cəmi birində məğlub olub. İngiltərə klubu UEFA Çempionlar Liqasının qrup mərhələsinin altıncı turunda "Şaxtyor"a 1:2 hesabı ilə uduzub.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**